RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 66 (10086) 18 aprel 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Geosiyasi gərginliklər fonunda Azərbaycan prinsipial və dəyişməz mövqeyi ilə qlobal sülhə töhfə verir

## Prezident İlham Əliyev Antalyada Diplomatiya Forumunun açılış mərasimində iştirak edib



Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan açılış nitqi ilə çıxış etdi.

2

## Antalyada Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib




Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib.

## Prezident İlham Əliyevin Antalyada Suriyanın keçid dövrü Prezidenti ilə görüşü olub



Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.

2

## Azərbaycan Prezidenti İlham Əliyev Antalyada Şimali Kipr Prezidenti ilə görüşüb



Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla görüşü olub.

2

## Dövlət həmişə vətəndaşının yanındadır



Azərbaycan və Rusiya Xarici İşlər nazirliklərinin birgə bəyanatında da qeyd olunur ki, atılan addımlar müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir: "Əminik ki, Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafı bundan sonra da mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcək".

Bütün bunlar Bakının qətiyyətli siyasətinin, prinsipial mövqeyinin göstəricisidir. Bu həm də onu sübut edir ki, Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev hər bir vətəndaşımızın problemi ilə yaxından maraqlanır, onun həlli istiqamətində əməli addımlar atır. Ölkəmiz öz haqqını tələb etmək və ona nail olmaq gücündədir. Bu zəfər həm diplomatiyamızın, həm də milli birliyimizin sarsılmazlığının növbəti təsdiqidir.

7

## Qlobal platformalarda Azərbaycanın artan rolu və nüfuzu

### İlham Əliyevin diplomatik strategiyası ölkəmizi beynəlxalq tədbirlərin vazkeçilməz iştirakçısına çevirib




Azərbaycanın nüfuzlu qlobal müzakirə platformalarına mütəmadi dəvət edilməsi, dövlətimizin başçısı İlham Əliyevin çıxışlarına böyük maraq göstərilməsi təsadüfi xarakter daşımır. Bu, 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqların və Azərbaycanın dünyada sülh, sabitlik və əməkdaşlıq simvolu kimi qəbul edilməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin mütəmadi olaraq mötəbər regional və qlobal toplantılarda iştirakı, habelə Bakının evsahibliyi etdiyi yüksəksəviyyəli sammitlər Azərbaycanın qazandığı etimadın bariz nümunəsidir.

Dövlətimizin başçısının yürütdüyü uzaqgörən və praqmatik siyasət sayəsində ölkəmiz dünya miqyasında əsas siyasi, iqtisadi və humanitar mərkəzlərdən birinə çevrilib. Beynəlxalq müstəvidə siyasi çəkisinin artması Azərbaycanı qlobal hadisələrə təsir edə bilən etibarlı tərəfdaş kimi möhkəmləndirib.

7

## Prezident İlham Əliyevin Antalyada Moldova Prezidenti ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Antalyada Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

2

## Uşaqların hüquqları dövlət tərəfindən qanunla qorunur



Uşaqlar hər bir cəmiyyətin gələcəyidir. Onların sağlam, təhlükəsiz və hüquqları qorunan mühitdə böyüməsi sabahın daha güclü cəmiyyətinin formalaşmasına kömək edir. Yeni qanun da məhz bu məqsədə xidmət edir. Xüsusilə müasir dövrdə uşaqların təhlükəsizliyi və rifahı məsələsi daha böyük əhəmiyyət daşıyır. Qanun bu sahədə dövlətin məsuliyyətini daha da artırır.

5

## Prezident İlham Əliyev Antalya Diplomatiya Forumu çərçivəsində Pakistanın Baş naziri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də 5-ci Antalya Diplomatiya Forumu çərçivəsində Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

# Geosiyasi gərginliklər fonunda Azərbaycan prinsipial və dəyişməz mövqeyi ilə qlobal sülhə töhfə verir

## Prezident İlham Əliyev Antalyada Diplomatiya Forumunun açılış mərasimində iştirak edib



















**Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.**

Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan açılış nitqi ilə çıxış etdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında Türkiyə ilə Ermənistan arasında davam edən normallaşma prosesinin Azərbaycanla əlaqəli şəkildə aparıldığını vurğuladı. Türk Dövlətləri Təşkilatından danışan Türkiyə Prezidenti qurumun fəaliyyətinin daha da inkişaf etdiyini bildirərək dedi: "Bu ilin son aylarında ölkəmizdə təşkil edəcəyimiz XIII Türk Dünyası Zirvəsində yeni dövrdə sədrliyi Azərbaycandan təhvil alacağıq. İnşallah, bu müddətdə təşkilatımızın beynəlxalq fəaliyyətini və nüfuzunu daha da artıracağıq. Azərbaycanla əlaqələndirilmiş şəkildə qonşumuz Ermənistanla normallaşma prosesində addım-addım irəliləyirik. Bu minvalla Asiya ilə Avropa arasındakı ticarətdə ən etibarlı marşrut olan və Xəzərdən keçən Şərq-Qərb - Orta dəhliz təşəbbüsünə də güclü dəstəyimiz davam edir".

* * *

Qeyd edək ki, geosiyasi gərginliklər, dəyişən güc balansları, ticarət maneələri və çoxtərəfliliyə artan təzyiq fonunda cari qlobal mənzərənin proqnozlaşdırılması getdikcə daha çətin xarakter alır. Beşinci forumun mövzusu "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək" riskləri və imkanları müəyyənləşdirməyi, strategiyalar hazırlamağı və əldə olunan razılaşmaları əməli addımlara çevirməyi tələb edir.

Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edir.

Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiyanın keçirilməsi nəzərdə tutulur.

# Prezident İlham Əliyevin Antalyada Suriyanın keçid dövrü Prezidenti ilə görüşü olub



**Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə Əhməd Əl Şaraanın ötən il Azərbaycana səfəri zamanı, həmçinin 4-cü Antalya Diplomatiya Forumu çərçivəsində görüşləri məmnunluqla xatırlandı.

Suriyada baş vermiş dəyişikliklərdən sonra ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı konkret addımların atıldığı vurğulandı.

Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, bu xüsusda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçirilməsinin əhəmiyyəti və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verməklə ümumilikdə bu ölkənin inkişafında önəmi qeyd olundu.

Əhməd Əl Şaraa Azərbaycanın Suriyaya göstərdiyi dəstəyə görə dövlətimizin başçısına bir daha minnətdarlıq etdi.

Görüşdə ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı, əlaqələrimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların roluna toxunuldu.

Söhbət zamanı bölgədə yaranmış gərginlikdən narahatlıq ifadə olundu, münaqişənin diplomatik yolla həll edilməsinin vacibliyi vurğulandı.

Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

# Azərbaycan Prezidenti İlham Əliyev Antalyada Şimali Kipr Prezidenti ilə görüşüb



**Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Tufan Erhürmana Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti seçilməsi münasibətilə təbriklərini çatdırdı.

Tufan Erhürman təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycan Respublikasının Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi daimi dəstəyə toxunuldu.

Prezident Tufan Erhürman buna görə dövlətimizin başçısına təşəkkür etdi.

Azərbaycan Prezidenti ölkəmizin həmişə Şimali Kipr Türk Cümhuriyyətinin yanında olduğunu deyərək, göstərilən dəstəyin gələcəkdə də davam etdiriləcəyini vurğuladı.

Söhbət zamanı bu ilin aprelində Azərbaycan Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin dostluq qrupları üzvlərinin Bakıda keçirilmiş 3-cü iclasının əhəmiyyəti qeyd edildi.

Görüşdə Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi vurğulandı, həmçinin bir sıra sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparıldı.

# Prezident İlham Əliyevin Antalyada Moldova Prezidenti ilə görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Antalyada Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə Maya Sandunun Azərbaycanda və Moldovada, həmçinin beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlər məmnunluqla xatırlandı.

Azərbaycan-Moldova münasibətlərinin perspektivləri müzakirə olundu, əlaqələrimizin inkişaf etdiyi vurğulandı, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından roluna toxunuldu.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı. Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycan tərəfindən nümayiş olunan dəstək bir daha yüksək qiymətləndirildi.

Maya Sandu vurğuladı ki, Moldovada yaşayan Azərbaycan icması ictimai-siyasi həyatda fəal iştirak etməklə bu ölkənin inkişafına öz töhfəsini verir.

Görüşdə dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 148-ci kitabı çapdan çıxıb




**Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.**

Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır. Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 148-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2025-ci il sentyabrın 25-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında söyləyib.

Çoxcildliyin bu kitabında toplanmış materiallar 2025-ci ilin sentyabr-noyabr aylarını əhatə edir.

Bu nəşrə Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına işgüzar səfərinə, yüksəksəviyyəli müzakirələrdə iştirakına, keçirdiyi görüşlərə dair materiallar daxil edilib.

Oxucular yeni kitabda Azərbaycan Respublikası Prezidentinin Danimarkaya işgüzar səfəri, Avropa Siyasi Birliyinin Kopenhagendə keçirilmiş 7-ci Zirvə Toplantısının açılış mərasimində, həmin toplantının plenar sessiyasında iştirakı, həmçinin keçirdiyi görüşlər haqqında informasiyalarla tanış ola bilərlər.

Azərbaycan Prezidenti 2025-ci ilin oktyabr ayında MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Tacikistanda, Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misir Ərəb Respublikasında səfərdə olub. Prezident İlham Əliyev oktyabr ayında həmçinin Qazaxıstana dövlət səfəri edib, Astanada "Orta dəhlizin inkişafı" birgə layihəsinin təqdimat mərasimində iştirak edib, Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edib. Səfər ərəfəsində isə dövlətimizin başçısı "Kazimform"a eksklüziv müsahibə verib. Bütün bunlar haqqında materiallar 148-ci kitabda yer alıb.

Çoxcildliyin bu kitabında Prezident İlham Əliyevin Azərbaycana rəsmi səfərə gəlmiş İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə görüşünə dair informasiya, Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılış mərasimində çıxışının mətni də verilib.

Oxucular bu kitabda Azərbaycan Prezidentinin Yevlax və Gəncə şəhərlərinə səfərləri, Gəncədə III MDB Oyunlarının təntənəli açılış mərasimində iştirakı haqqında informasiyalar, dövlətimizin başçısının Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışının mətni ilə də tanış ola bilərlər.

Azərbaycan Prezidenti həmçinin Cəbrayıla və Zəngilana səfərlər edib, Cəbrayıl rayonu Horovlu kəndinin sakinlərinə mənzillərin açarlarını təqdim edib, Cəbrayıl şəhər məscidinin, bu şəhərdə ikinci və üçüncü yaşayış komplekslərinin təməlini qoyub. Dövlətimizin başçısı Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılış mərasimlərində iştirak edib, Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış olub, Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşüb. Bütün bunlar haqqında informasiyalar yeni kitabda toplanıb.

Bu kitaba Azərbaycan Prezidentinin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbirdə çıxışının mətni də daxil edilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Antalyada "Dəyişən dünyada regional sahiblənmənin rolu" barədə danışılıb

**Aprelin 17-də Antalya Diplomatiya Forumu çərçivəsində "Dəyişən dünyada regional sahiblənmənin rolu" mövzusunda panel iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Konqo Demokratik Respublikasının Prezidenti Felix Antoine Tshisekedi Tshilombo, Afrika İttifaqının dövrü sədri və Burundi Prezidenti Evariste Ndayişimiye, Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və El Salvador Respublikasının Vitse-prezidenti Felix Ulloa Jr. Duro Macutun mövzu ilə bağlı fikirləri dinlənilib.







Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz ölkələrinin münaqişələrdən çox diplomatiyaya üstünlük verdiyini, eyni zamanda qeyri-sabitlik və qeyri-təhlükəsizlik əvəzinə, sabitliyi dəstəklədiklərini bildirib. "Məhz buna görə də biz bir çox regional əməkdaşlıq mexanizmlərində iştirak edirik. Bir tərəfdən, NATO üzvüyük və Avropa İttifaqına namizəd ölkəyik. Digər tərəfdən isə, Türk Dövlətləri Təşkilatı kimi yeni regional təşkilatlara, islam ölkələri arasında əməkdaşlığın genişlənməsinə və regionumuzda daha güclü təhlükəsizlik strukturlarının qurulmasına çalışırıq", - deyə Vitse-prezident əlavə edib.

O bildirib ki, Türkiyə hər zaman dialoqu və diplomatiyanı münaqişədən üstün tutub. Müharibələr heç bir tərəf üçün faydalı deyil, ədalətli sülh isə hamı üçün xeyirlidir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji layihələrinin bu gün qlobal enerji təhlükəsizliyinə xidmət etməklə yanaşı, region ölkələrinin də maraqlarını təmin etdiyini vurğulayıb.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinin regional baxımdan xüsusi əhəmiyyət daşıdığını vurğulayan Prezidentin köməkçisi bildirib ki, ölkəmiz bu prosesdə liderlik nümayiş etdirib və münaqişə artıq keçmişdə qalıb. Azərbaycan siyasi, hərbi və hərbi-siyasi vasitələrlə öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib.

H.Hacıyev regional sahiblənmənin Azərbaycan üçün fundamental prinsipləri və əsas sütunlarının regional çağırışları, problemləri özümüzün, eyni fikirdə olduğumuz bölgədəki tərəfdaşlarımızla birlikdə həll etmək olduğunu diqqətə çatdırıb.

Türkiyə-Azərbaycan ikitərəfli əməkdaşlığının regional sülh və təhlükəsizliyin mühüm sütunlarından biri olduğunu qeyd edən Prezidentin köməkçisi deyib: "Türkiyə-Azərbaycan əməkdaşlığı liderlərimiz tərəfindən imzalanan Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəldi. Biz bununla kifayətlənmədik. İkitərəfli əməkdaşlığı üçtərəfli modelə çevirdik və bununla da tam regional sahiblənməni həyata keçirdik. Burada Türkiyə-Azərbaycan-Gürcüstan əməkdaşlığı, Türkiyə-Azərbaycan-İran əməkdaşlığı mövcuddur və biz həmçinin Mərkəzi Asiyadakı qardaşlarımıza da əl uzatmışıq. Üçtərəfli və ya çoxtərəfli formatlarda praktik əməkdaşlıq mexanizmi qurmuşuq və bu, bütün tərəflərin maraqlarına xidmət edir".

Digər çıxışçılar qlobal idarəetmə strukturunun getdikcə daha çox qütbləşdiyi və parçalandığı bir dövrdə qeyri-müəyyənliklərin idarə olunmasının innovativ və gələcəyə yönələn yanaşmaları zəruri olduğunu bildiriblər. Bu kontekstdə regional sahibliyin ortaq çağırışların həllində əsas hərəkətverici qüvvələrdən biri kimi getdikcə daha çox əhəmiyyət qazandığı vurğulanıb.

Bildirilib ki, münaqişələrin idarə olunmasından iqtisadi əlaqəliliyin gücləndirilməsinə qədər geniş bir sahədə regional platformalar, qlobal mexanizmlərin yetərsiz qaldığı hallarda daha praktik və kontekstə uyğun həllər təqdim edə bilir.

# Antalya Diplomatiya Forumunda Cənubi Qafqazın strateji mərkəz olmaq istiqamətində addımladığı vurğulanıb

**Aprelin 17-də Antalya Diplomatiya Forumu çərçivəsində "Cənubi Qafqaz: Strateji mərkəz olmaq yolunda" mövzusunda panel iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Türkiyə Prezidentinin baş müşaviri Akif Çağatay Kılıç, Gürcüstan hökumətinin aparat rəhbəri Levan Jorjoliani və Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyanın mövzu ilə bağlı fikirləri dinlənilib.




Hikmət Hacıyev çıxışında Azərbaycanın regionda sülh gündəliyinə tam sadiq olduğunu, bu istiqamətdə konkret addımlar ataraq, Ermənistan tərəfi ilə praqmatik əməkdaşlıq həyata keçirdiyini deyib: "Bu gün Cənubi Qafqazda real sülh mövcuddur və Azərbaycan bu sülhün möhkəmləndirilməsi üçün bütün səylərini davam etdirəcək. Biz bu istiqamətdə həm siyasi iradə, həm də diplomatik cəsarət nümayiş etdirmişik".

Qeyd edilib ki, bu addımlar iki ölkə arasında etimadın möhkəmlənməsinə xidmət edir. Artıq Ermənistan və Azərbaycan arasında ticarət əlaqələri formalaşmağa başlayır.

Qlobal logistika və təchizat zəncirlərinin pozulmasının Orta dəhlizin əhəmiyyətini bir daha göstərdiyini qeyd edən Hikmət Hacıyev Azərbaycanın eyni zamanda "dörd dəniz" konsepsiyasını nəzərdən keçirdiyini vurğulayıb.

O bildirib ki, Azərbaycan yalnız Cənubi Qafqaz ölkəsi deyil, eyni zamanda çoxşaxəli geosiyasi kimliyə malik ölkədir.

Gürcüstan hökumətinin aparat rəhbəri Levan Jorjoliani isə sülhə nail olan Azərbaycan və Ermənistan adına çox sevindiklərini ifadə edib.

O deyib ki, Cənubi Qafqaz ölkələrinin eyni baxışa malik olmaları rifah, sabitlik və sülhün təmin olunması istiqamətində ortaq mövqe nümayiş etdirmələri xalqların daha firavan yaşayacağına qəti inam yaradır.

Digər çıxış edənlər mövzu ilə bağlı fikirlərini bölüşərkən Cənubi Qafqazın qlobal güc balanslarının dəyişdiyi və qeyri-müəyyənliklərin dərinləşdiyi bir dövrdə enerji və ticarət dəhlizlərinin kəsişdiyi strateji mərkəz kimi ön plana çıxdığını qeyd ediblər.

Bildirilib ki, regionun artan geosiyasi və iqtisadi əhəmiyyəti sabitliyin qorunmasını həm region ölkələri, həm də qlobal aktorlar üçün vacib edir. Türkiyə isə diplomatiya və əməkdaşlığı önə çəkən konstruktiv yanaşması ilə regional dialoqu gücləndirən, etimadın qurulmasına töhfə verən və regional qeyri-müəyyənliklərin idarə olunmasına dəstək göstərən bir körpü rolunu oynayır.

# "Cənubi Qafqaz ölkələrinin ortaq baxışı xalqlarımızın daha firavan yaşayacağına qəti inam yaradır"

**"Bölgə ölkəsi olaraq, biz qonşularımız Azərbaycan və Ermənistan üçün çox sevinirik. Onlar sülhə nail ola biliblər. Hazırda onların ticarət münasibətləri inkişaf edir və bu prosesdə Gürcüstan mühüm rol oynayır, oynamaqda da davam edəcək. Biz də bu prosesi dəstəkləyir və təşviq edirik".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Gürcüstan hökumətinin aparat rəhbəri Levan Jorjoliani ADF 2026 çərçivəsində keçirilən "Cənubi Qafqaz: Strateji mərkəz olmaq yolunda" mövzusunda panel sessiyada səsləndirib.

O deyib ki, Cənubi Qafqaz ölkələrinin eyni baxışa malik olmaları, rifah, sabitlik və sülhün təmin olunması istiqamətində ortaq mövqe nümayiş etdirmələri xalqlarımızın daha firavan yaşayacağına qəti inam yaradır: "Biz sülh siyasətini təşviq etməyə davam edəcəyik. Digər prioritet istiqamətimiz iqtisadiyyatdır. Sülh və iqtisadiyyat bir-biri ilə sıx bağlıdır. Məhz buna görə də iqtisadi artımı təşviq etməyi davam etdirəcəyik".

# ADF 2026-da mövcud enerji problemləri müzakirə olunub

**Türkiyədə V Antalya Diplomatiya Forumunun (ADF 2026) birinci günü müzakirə olunan ilk mövzular qlobal enerji təchizatı və yaranan problemlər ilə bağlıdır.**

AZƏRTAC xəbər verir ki, "Qlobal enerji xəritəsinin yenidən çəkilməsi: Təhlükəsizlik və qeyri-müəyyənlik" mövzusunda keçirilən panel iclasda Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar, Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Sloveniyanın ətraf mühit, iqlim və enerji naziri Bojan Kumer, Liviyanın neft və qaz naziri Xəlifə Abdulsadık və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Baş direktoru Françesko La Kameranın mövzu ilə bağlı fikirləri dinlənilib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov çıxışı zamanı enerji təhlükəsizliyi artıq ümumi təhlükəsizlik mühitinin vacib məsələlərindən birinə çevrildiyini və onların hazırda böyük əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Nazir dünyanın tarixin ən ciddi böhran təhdidlərindən biri ilə qarşı-qarşıya olduğunu bildirərək deyib: "Əgər boğazdakı vəziyyətə baxsaq, görə bilərik ki, ümumilikdə gündə təxminən 12 milyon barel həcmində enerji qlobal təchizatdan kənarda qalır. Bunun müəyyən hissəsi Avropaya və Asiyaya yönəlir. Belə ki, mayeləşdirilmiş təbii qazın 8 faizdən çoxu, neft tankerlərinin 7 faizi, reaktiv yanacaq və dizelin isə 40 faizi həmin marşrut vasitəsilə Avropaya çatdırılır. Məhz buna görə də Avropa bu boğazda baş verən hadisələrə olduqca həssasdır. Eyni zamanda bu enerji təchizatının təxminən 90 faizi Asiyaya yönəlir. Biz neftimizi dünyanın təxminən 20 ölkəsinə, o cümlədən Avropa və Asiya ölkələrinə ixrac edirik. Son illərdə isə Avropadakı tərəfdaşlarımıza təbii qaz nəql etməyə başlamışıq və 16 ölkəyə tədarük həyata keçiririk. Onların 10-u Avropa İttifaqının üzvüdür. Prinsip etibarilə bu fəaliyyətimiz qlobal enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir".




Energetika naziri neft ixrac edən ölkələrin bu böhranın təsirlərini dərindən hiss etdiyini vurğulayıb. "Bəzən yüksək qiymətlərlə bağlı belə bir təsəvvür yaranır ki, istehsalçı ölkələr bundan böyük qazanc əldə edir. Lakin reallıqda bu tam doğru deyil. Çünki adətən neft və ya karbohidrogen istehsal edən ölkələrin suveren sərvət fondları olur. Bu fondlar qlobal maliyyə bazarlarına və müxtəlif aktivlərə investisiya yatırır. Fond bazarları düşdükdə isə bu gəlirlər də azalır, eyni zamanda idxal olunan enerji və digər sahələr də bundan təsirlənir. Nəticə etibarilə qeyd etdiyim kimi, biz bəzən yüksək neft qiymətlərindən qazandığımızdan daha çoxunu fond bazarlarının enməsi səbəbindən itirə bilərik. Məhz buna görə biz həmişə istehsalçılar, istehlakçılar və neft-qaz sənayesi üçün vacib olan balanslı neft qiymətlərinin təmin olunmasına çalışan ölkə olmuşuq", - deyə nazir əlavə edib.

Pərviz Şahbazov bildirib ki, Türkiyə ilə əməkdaşlığımız ölkələr qrupunun, tərəfdaş və qardaş dövlətlərin enerji təhlükəsizliyinə necə töhfə verə biləcəyinin çox yaxşı nümunəsidir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr Xəzər dənizini Bakı-Supsa kəməri vasitəsilə Qara dənizlə, Bakı-Tbilisi-Ceyhan, həmçinin Bakı-Tbilisi-Ərzurum layihəsi vasitəsilə Aralıq dənizi ilə birləşdirib.

"Bundan əlavə, uzunluğu 3500 kilometr olan "Cənub qaz dəhlizi" tarixdə ilk dəfə olaraq Xəzər dənizini yeddi ölkə üzərindən İtaliyanın cənub hissəsi - Adriatik dənizi ilə birləşdirib. Bu, qlobal enerji sektorunun dayanıqlılığını təmin etmək və enerji təhlükəsizliyini ən yaxşı şəkildə gücləndirmək üçün əməkdaşlığın necə qurulmalı olduğunun bariz nümunəsidir", - deyə o əlavə edib.

Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar öz növbəsində geosiyasi gərginliklərin, müharibələrin və qiymət artımlarının enerji bazarlarına dərin təsir göstərdiyi bir vaxtda Türkiyə bu prosesi hazır və dayanıqlı enerji infrastrukturu ilə idarə etdiyini deyib. Nazir Türkiyə hökumətinin mənbə və marşrutların müxtəlifliyini artırmaq, infrastrukturu gücləndirmək, bərpaolunan enerji investisiyalarını sürətləndirmək və nüvə enerjisi vasitəsilə baza yükünü daimi təmin etmək məqsədilə hərtərəfli Yol Xəritəsini qətiyyətlə həyata keçirdiyini diqqətə çatdırıb.

"Gələcək dövrdə enerji böhranları müxtəlif formalarda yaranmağa davam edəcək. Bu təcrübələrə əsaslanaraq, hazırladığımız həlləri qlobal miqyasda təqdim etməyə davam edəcəyik. Enerji diplomatiyasından effektiv istifadə etməklə, Türkiyə böhranların idarə olunduğu, əməkdaşlıqların inkişaf etdiyi və yeni enerji koridorlarının formalaşdığı bu dövrdə etibarlı tərəfdaş və güclü enerji mərkəzinə çevrilmək yolunda irəliləməyə davam edəcək", - deyə Alparslan Bayraktar vurğulayıb.

Digər natiqlər qlobal enerji bazarlarında baş verən son proseslər barədə danışıb, mövcud vəziyyətin sistemlərin kövrəkliyini üzə çıxardığını qeyd ediblər.

Çıxışlarda davam edən geosiyasi münaqişələr, artan ticarət maneələri və strateji rəqabət, təchizat təhlükəsizliyi və qiymət dalğalanmaları ilə bağlı artan narahatlıqlara diqqət çəkilib. Bildirilib ki, bu, dəyişən şəraitdə, təhlükəsiz, əlverişli və dayanıqlı enerjinin təmin edilməsi daha geniş beynəlxalq əməkdaşlıq tələb edən ortaq prioritetə çevrilib.

# Parlament diplomatiyası

## Milli Məclisin Sədri Sahibə Qafarovaya Gürcüstan parlamentinin "Şərəf" medalı təqdim olunub

**Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın İstanbul şəhərində keçirilən Assambleyası çərçivəsində Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvili ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Şalva Papuaşvili Gürcüstan parlamentinin "Şərəf" medalını Milli Məclisin Sədri Sahibə Qafarovaya təqdim edib. Qeyd olunub ki, Azərbaycan parlamentinin Sədri parlamentlərarası əlaqələrin inkişafına, həmçinin xalqlarımız arasında dostluğun daha da möhkəmlənməsinə verdiyi töhfəyə görə bu ali mükafata layiq görülüb. Vurğulanıb ki, Milli Məclisin Sədri Sahibə Qafarova bu medala layiq görülən ilk parlament sədridir.

Söhbət zamanı PAİ Assambleyası kimi beynəlxalq tədbirlərin həm dünya ictimaiyyətini narahat edən məsələlərin və aktual problemlərin müzakirəsi, həm də qanunvericilik orqanları arasında əməkdaşlığın yenidən nəzərdən keçirilməsi baxımından mühüm imkanlar yaratdığı diqqətə çatdırılıb.

Tərəflər münasibətlərin yüksək səviyyədə inkişafında dövlət başçıları arasında mövcud olan əlaqələrin, eləcə də ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin mühüm rol oynadığını qeyd ediblər. Bu çərçivədə Prezident İlham Əliyevin cari ilin aprel ayında Gürcüstana dövlət səfərinin əhəmiyyəti xüsusi qeyd olunub.

Söhbət zamanı parlamentlərarası əməkdaşlığın da yüksək səviyyədə olduğu məmnunluqla vurğulanaraq bildirilib ki, qanunvericilik orqanları həm ikitərəfli əsasda, həm də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir. Vurğulanıb ki, parlamentlərarası əməkdaşlıq Azərbaycan və Gürcüstan arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrin mühüm istiqamətlərindən biridir və bu sahədə effektiv qarşılıqlı fəaliyyət mexanizmləri formalaşıb.

Parlament sədrləri və deputatlar arasında qarşılıqlı səfərlərin tərəflər arasında dialoqun daha da dərinləşməsinə müsbət töhfələri qeyd olunub. Sahibə Qafarova özünün mart ayında Gürcüstana səfərini xatırlayıb.

Görüşdə bildirilib ki, dostluq qrupları ilə yanaşı, parlament komitələri arasında da səmərəli əməkdaşlıq təcrübəsi mövcuddur. Eyni zamanda Azərbaycan və Gürcüstan parlamentarilərinin beynəlxalq platformalarda qarşılıqlı dəstəyi və koordinasiyalı fəaliyyəti xüsusi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## TÜRKPA-ya üzv ölkələrin parlament sədrlərinin birinci qeyri-rəsmi görüşü keçirilib

**Parlamentlərarası İttifaqın 152-ci Assambleyası çərçivəsində TÜRKPA-ya üzv ölkələrin parlament sədrlərinin birinci qeyri-rəsmi görüşü keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin Sədri qeyd edib ki, Milli Məclis həmişə olduğu kimi, bundan sonra da TÜRKPA-nın davamlı inkişafını ardıcıl surətdə dəstəkləyəcək. O vurğulayıb ki, ortaq tarix, dil və mədəni-mənəvi dəyərlər xalqlarımızı və ölkələrimizi sıx birləşdirir. Onun sözlərinə görə, qardaş ölkələrimiz arasında əməkdaşlıq əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurla və dinamik şəkildə inkişaf edir. Milli Məclisin Sədri deyib ki, qardaş ölkələrimizi əhatə edən coğrafiyada cərəyan edən geosiyasi gərginliklərə və təhdidlərə baxmayaraq, qarşılıqlı dəstək və etibarlı tərəfdaşlıq üzərində qurulmuş münasibətlərimiz, ölkələrimizin birliyi və həmrəyliyi daha da güclənməkdədir. Bu birlik və həmrəylik inkişaf və əməkdaşlığı təmin edir, regional və qlobal səviyyədə sülhə və sabitliyə mühüm töhfə verir.

Qeyd olunub ki, Azərbaycan daim türk dünyasının daha sıx inteqrasiyası, onun siyasi və iqtisadi qüdrətinin artması, beynəlxalq nüfuzunun yüksəlməsi naminə ardıcıl fəaliyyət həyata keçirir. Qardaş türk dövlətləri ilə əlaqələrin genişlənməsi və möhkəmlənməsi Azərbaycanın xarici siyasətinin əsas prioritet istiqamətlərindəndir.

Spiker Sahibə Qafarovanın sözlərinə görə, məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2024-cü ilin iyulunda mədəniyyət paytaxtı Şuşa şəhərində Türk Dövlətləri Təşkilatının dövlət başçılarının ilk qeyri-rəsmi zirvə görüşü keçirilib. Daha sonra bu ənənə davam etdirilib, növbəti qeyri-rəsmi zirvə görüşü 2025-ci ildə Budapeştdə keçirilib.

TÜRKPA-ya üzv parlament sədrlərinin Parlamentlərarası İttifaqın assambleyaları çərçivəsində qeyri-rəsmi görüşlərinin keçirilməsi təşəbbüsünü Milli Məclisin dəstəklədiyini deyən Sahibə Qafarova bildirib ki, bu toplantılar yalnız TÜRKPA çərçivəsində deyil, həmçinin digər beynəlxalq təşkilatlar və qurumlar çərçivəsində əməkdaşlığımızı qiymətləndirməyə, eyni zamanda maraq doğuran məsələləri səmimi mühitdə müzakirə etməyə şərait yaradır. Qeyd olunub ki, bu formatda toplaşmağımız gündəlikdə duran məsələlərin müzakirəsi, ortaq maraqlarımızın müdafiəsi və gələcək fəaliyyətin əlaqələndirilməsi baxımından olduqca əhəmiyyətlidir.

Sonra görüş təşkilata üzv olan digər ölkələrin parlament sədrlərinin çıxışları və müzakirələrlə davam edib.

*"Azərbaycan"*

## Azərbaycanla Əlcəzair arasında əlaqələri daha da inkişaf etdirmək üçün əlverişli imkanlar mövcuddur

**Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin İstanbul şəhərinə işgüzar səfəri çərçivəsində Əlcəzair Xalq Demokratik Respublikası Milli Xalq Assambleyasının Sədri İbrahim Bouğali ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə dost ölkələrimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Azərbaycan və Əlcəzair arasında əlaqələri daha da inkişaf etdirmək üçün əlverişli imkanlar mövcuddur. Tərəflər siyasi dialoqun mövcud səviyyəsindən məmnunluqlarını bildirərək, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirdiklərini bildiriblər.

Söhbət zamanı parlamentlərimiz arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin mühüm bir istiqamətini təşkil etdiyi vurğulanaraq, həm parlament sədrləri səviyyəsində qarşılıqlı səfərlərin və görüşlərin, həm də deputatlar arasında mütəmadi dialoqun bu münasibətlərin daha da dərinləşməsinə töhfə verdiyi bildirilib. O cümlədən dostluq qruplarının fəaliyyətinin bu əlaqələrin daha da dərinləşdirilməsinə dəstək verdiyi qeyd olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, parlamentlərimiz beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq edirlər və bu təşkilatlarda qanunverici orqanlarımız arasında qarşılıqlı dəstək mövcuddur. O cümlədən Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan və Milli Məclisin sədrliyi ilə institusional inkişaf və beynəlxalq nüfuzunun möhkəmləndirilməsi istiqamətində mühüm uğurlar əldə edən Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də əlaqələrin daha da inkişafı barədə fikirlər səsləndirilib. Qeyd olunub ki, Parlament Şəbəkəsi həm bir sıra mühüm beynəlxalq məsələlərin müzakirəsi, həm də parlamentlər arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün mühüm platformaya çevrilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Parlamentlərarası İttifaqın 152-ci Assambleyasının iclasında iştirak edən parlament sədrləri ilə görüşüb

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova görüşdə iştirak edib.**



Görüş zamanı Türkiyə Prezidenti parlament sədrlərini salamlayaraq, tədbirin əhəmiyyətini və müzakirə olunan mövzuların aktuallığını vurğulayıb. O, Parlamentlərarası İttifaqın daşıdığı missiyanı yüksək qiymətləndirərək, 152-ci Assambleyanın parlament diplomatiyası çərçivəsində daha ədalətli və təhlükəsiz bir dünyanın, sülh və sabitliklə müşayiət olunan gələcəyin əsaslarının qoyulmasına töhfə verəcəyinə inamını ifadə edib.

Prezident Rəcəb Tayyib Ərdoğan parlamentlər arasında əməkdaşlığın gücləndirilməsinin qlobal çağırışların həllində vacib rol oynadığını vurğulayaraq, dialoq və qarşılıqlı anlaşmanın inkişaf etdirilməsinin zəruriliyini bildirib.

*"Azərbaycan"*

## Azərbaycan və Ermənistan parlamentlərinin sədrləri arasında dialoqun qurulmasında göstərilən səylər yüksək qiymətləndirilib

**Aprelin 17-də İstanbulda Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası çərçivəsində Azərbaycan və Ermənistan parlamentlərinin sədrləri arasında ikitərəfli görüş keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüş zamanı iki ölkə arasında münasibətlərin normallaşması çərçivəsində sülh və sabitliyin gücləndirilməsi, eləcə də ticarət əlaqələrinin qurulması və genişləndirilməsi ilə bağlı son proseslər məmnunluqla qeyd edilib.

Söhbətdə PAİ Assambleyasının parlamentlərarası əməkdaşlıq üçün mühüm platforma kimi rolu vurğulanaraq, bu baxımdan qurumun Baş katibi Martin Çunqonqun Azərbaycan və Ermənistan parlamentlərinin sədrləri arasında dialoqun qurulmasında göstərdiyi səylər yüksək qiymətləndirilib, ona təşəkkür ifadə edilib.

Spikerlər 2025-ci ilin oktyabrında Cenevrədə baş tutmuş görüşdən sonra parlament nümayəndə heyətləri arasında beynəlxalq təşkilatlar çərçivəsində təmasları müsbət dəyərləndirib və bu təmasların davam etdirilməsi barədə razılığa gəliblər.

Görüşdə spikerlər iki cəmiyyət arasında etimadın daha da möhkəmləndirilməsi üçün konstruktiv parlament dialoqunun davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

*"Azərbaycan"*

## Spiker Sahibə Qafarova Dominikan Respublikası Deputatlar Palatasının Sədri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova İstanbulda keçirilən Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası çərçivəsində Dominikan Respublikası Milli Konqresinin Deputatlar Palatasının Sədri Alfredo Paçeko ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüş zamanı parlamentlərarası əlaqələrin inkişafı perspektivləri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı ölkələrimizin Parlamentlərarası İttifaq, BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının əhəmiyyəti qeyd olunub, bunun ümumi mənafelərə xidmət etdiyi vurğulanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, parlament diplomatiyasının təşviqinə xüsusi önəm verdiyini bildirib. Spiker qeyd edib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə üzv dövlətlər arasında həmrəyliyin gücləndirilməsi, o cümlədən kiçik ada dövlətlərinin maraqlarının müdafiəsi üçün qarşılıqlı dəstəyin təşviqi və qlobal çağırışlara birgə cavab verilməsi istiqamətində mühüm təşəbbüslərlə çıxış edib. O həmçinin bildirib ki, COP29-a sədrliyi çərçivəsində Azərbaycan kiçik ada dövlətlərin narahatlıqlarını daim diqqətdə saxlayıb, onların üzləşdiyi problemlərin həlli istiqamətində beynəlxalq səylərin birləşdirilməsinə xüsusi önəm verib. Bu məqsədlə COP29 çərçivəsində həmin dövlətlərin problemlərinə həsr olunmuş xüsusi sammit keçirilib. Sahibə Qafarova eyni zamanda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin yaradılmasının və institusional inkişafının çoxtərəfli parlament əməkdaşlığı baxımından önəmli platformaya çevrildiyini vurğulayıb.

Alfredo Paçeko ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsində maraqlı olduğunu bildirərək, parlamentlər arasında təmasların artırılmasının münasibətlərin inkişafına töhfə verəcəyini qeyd edib.

*"Azərbaycan"*

## Azərbaycan və Venesuela parlamentləri arasında əməkdaşlıq məsələləri nəzərdən keçirilib

**Milli Məclisin Sədri Sahibə Qafarova İstanbulda keçirilən Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası çərçivəsində Venesuela parlamentinin vitse-spikeri Qresia Colmenares ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, söhbət zamanı parlamentlər arasında əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Görüşdə ölkələrimizin bir sıra beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığından məmnunluq bildirilib. Qoşulmama Hərəkatında ölkəmizin sədrliyi dövründə Azərbaycan hökuməti tərəfindən irəli sürülən bütün təşəbbüslərin Venesuela tərəfindən dəstəkləndiyi vurğulanıb.

Söhbət zamanı spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin institusional inkişafı, təşkilatın məqsədlərinin həyata keçirilməsi istiqamətində görülmüş işlər barədə danışıb. Venesuela parlamentinin sədr müavini Parlament Şəbəkəsinin fəaliyyətini yüksək qiymətləndirib, ölkəsinin şəbəkənin işində fəal iştirak etdiyini söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova PAİ-nin 152-ci Assambleyası çərçivəsində ümumi müzakirələrə sədrlik edib




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müzakirələrdə İraq Nümayəndələr Şurasının Sədri Haibat Hamad Abbas al-Halbusi, Avstraliya Nümayəndələr Palatasının Sədri Duqald Milton Dik, Niger Məsləhət Şurasının Sədri Mamoudu Haruna Cinqarey, Ermənistan parlamentinin Sədri Alen Simonyan, Nepal Milli Assambleyasının Sədri Narayan Prasad Dahal, Cənubi Afrika Respublikası Milli Assambleyasının Sədri Angela Tokozile Didiza, Fələstin Milli Şurasının Sədri Ravi Fattouh və digərləri çıxış edərək müzakirə olunan mövzularla bağlı fikirlərini bildiriblər.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Belçika Krallığı Federal Assambleyası Senatının Sədri ilə görüşüb

**Türkiyənin İstanbul şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası çərçivəsində Belçika Krallığı Federal Assambleyası Senatının Sədri Vinsent Blondel ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə iki ölkə arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Bildirilib ki, parlamentlər dialoq və qarşılıqlı anlaşmaya töhfə verən strukturlardır. Bu mənada qarşılıqlı təmaslar maraq doğuran məsələlərin müzakirəsində xüsusi rol oynayır. Bu çərçivədə PAİ-nin xüsusi rolu vurğulanıb. Bildirilib ki, PAİ həmişə dialoqa, ümumi səylərə xidmət edir. Qeyd olunub ki, parlamentarilər arasında təmaslar bir-birini daha yaxşı başa düşmək, vacib məsələləri müzakirə etmək imkanı yaradır. Spiker Sahibə Qafarova bu gün Azərbaycanla Belçika arasında müxtəlif istiqamətlərdə, o cümlədən parlament sahəsində əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Milli Məclisin Sədri regionumuzda baş verən proseslər və Azərbaycan-Ermənistan arasında normallaşma prosesi haqda qarşı tərəfə məlumat verib. O, məsələlərə birtərəfli və qərəzli yanaşmaların normallaşma prosesinə mane olduğunu qeyd edib.

Spiker Sahibə Qafarova Ermənistan parlamentinin spikeri ilə görüşünün də, əslində, qarşılıqlı etimadın gücləndirilməsinə yönəldiyini diqqətə çatdıraraq, parlament diplomatiyasının məhz belə məqsədlərə xidmət etməli olduğunu vurğulayıb.

Söhbət zamanı digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Baş prokuror Türkiyə Respublikası Ali Məhkəməsinin nümayəndə heyətini qəbul edib

**Aprelin 17-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsinin 2-ci Cinayət Kollegiyasının Sədri Yusuf Kuzunun rəhbərlik etdiyi heyəti qəbul edib.**




Nümayəndə heyətini səmimi salamlayan baş prokuror Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "bir millət, iki dövlət" prinsipinə əsaslanan iki qardaş ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, prezidentlər cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın uzaqgörən xarici siyasəti nəticəsində dövlətlərimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndiyini, mütəmadi görüşlər, sıx təmaslar və beynəlxalq tədbirlər çərçivəsində həyata keçirilən qarşılıqlı səfərlərin, o cümlədən hazırda davam edən 5-ci Antalya Diplomatiya Forumu kimi platformalarda birgə iştiraklarının digər sahələrlə yanaşı, ölkələrimizin hüquq sistemləri və hüquqşünasları arasında əməkdaşlığın daha da inkişaf etməsində mühüm rol oynadığını qeyd edib.

Bundan başqa, baş prokuror Şanlıurfa və Kahramanmaraş şəhərində yerləşən məktəbə edilən silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla çox sayda insanın həlak olması və yaralanması ilə bağlı başsağlığını bildirib, bu ağır və kədərli hadisədə həlak olanların ailə üzvlərinə, yaxınlarına səbir diləyib, yaralananların isə tezliklə sağalmasını arzulayıb.

Türkiyə Respublikası Ali Məhkəməsinin 2-ci Cinayət Kollegiyasinin Sədri Yusuf Kuzu göstərilən qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib, ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olmasını vurğulayıb.

Görüşdə ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə sistemləri arasında əməkdaşlığın uğurla davam etdiyi bildirilib, eləcə də hakim və prokurorların ixtisasartırma təlimlərinin təşkilinin vacibliyi qeyd olunaraq gələcəkdə də bu istiqamətdə əlaqələrin inkişaf etdiriləcəyinə əminlik ifadə edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında, o cümlədən hüquq və qanunvericilik sistemində həyata keçirilmiş islahatlar barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Estoniya gömrük xidmətlərinin nümayəndə heyətləri arasında görüş keçirilib

**DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Belçika Krallığının paytaxtı Brüssel şəhərindəki görüşü çərçivəsində Azərbaycan və Estoniya gömrük xidmətlərinin nümayəndə heyətləri arasında görüş keçirilib.**



Estoniya Vergi və Gömrük Şurasının dəvəti əsasında keçirilən, Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov və Estoniya Vergi və Gömrük Şurasının sədri Raigo Uukkivinin iştirak etdikləri görüşdə gömrük sahəsində rəqəmsal həllərin tətbiqi, risklərin idarə olunması, məlumat mübadiləsi və institusional əməkdaşlığın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Həmçinin əməkdaşlığın daha sistemli və dayanıqlı əsasda inkişaf etdirilməsi məqsədilə qarşılıqlı hüquqi çərçivənin formalaşdırılması, o cümlədən müvafiq anlaşma sənədinin imzalanması imkanları müzakirə olunub.

# İşəgötürənlərin bərabər əməkhaqqı təmin etmək öhdəliyi daha da konkretləşdirilir

**Aprelin 17-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda iki məsələ - Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda müzakirə olunub.

Komitə sədri Musa Quliyev gündəliyin ilk məsələsi - Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı bildirib ki, təklif olunan dəyişikliklərin əsas məqsədi narkomaniya xəstəliyinə düçar olmuş şəxslərin əmək münasibətlərinin daha konkret, obyektiv və şəffaf şəkildə tənzimlənməsidir.

Bununla yanaşı, qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Əmək Məcəlləsinin 4 maddəsinə ümumilikdə 6 dəyişiklik təklif olunur, həmçinin 48-ci maddənin 5-ci bəndinə 5-2 və 5-3-cü yarımbəndlərin əlavə edilməsi nəzərdə tutulur.

Daha sonra - Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verilib. Bildirilib ki, təqdim olunan layihəyə əsasən Əmək Məcəlləsində dəyişiklik edilərək işəgötürənlərin bərabər əməkhaqqı təmin etmək öhdəliyi daha da konkretləşdirilir, əməkhaqqı sistemində cinsə görə ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir.

Qeyd olunub ki, bu məqsədlə məcəllənin işəgötürənin vəzifələrini müəyyən edən 12-ci maddəsinin "g" bəndi təkmilləşdirilir və cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işləri yerinə yetirən işçilərə bərabər əməkhaqqının verilməsi işəgötürən üçün öhdəlik kimi müəyyən edilir.

Müzakirələrdə komitənin üzvləri Vüqar Bayramov, Səttar Möhbalıyev və Soltan Məmmədov çıxış edərək qanun layihəsinə dair fikirlərini səsləndiriblər, bəzi qeyd və təkliflərini irəli sürüblər.

Qanun layihələrinin hər ikisi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Uşaqların hüquqları dövlət tərəfindən qanunla qorunur

**Prezident İlham Əliyev "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq edib.**

Yeni qanunun qəbulunda məqsəd mövcud qanunvericiliyin müasir çağırışlar nəzərə alınmaqla təkmilləşdirilməsi, uşaq mənafelərinin daha effektiv qorunması, sosial təminat mexanizmlərinin gücləndirilməsi və beynəlxalq konvensiyaların tələblərinə uyğunlaşdırılmasıdır. Bu qanunun qüvvəyə minməsilə "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 1998-ci il 19 may tarixli 499-1Q nömrəli qanunu ləğv olunub.

"Uşaq hüquqları haqqında" yeni qanun ölkədə uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edir.

Qanuna əsasən, ölkədə yaşayan hər bir uşaq mənşəyindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, ailəsinin sosial və maddi vəziyyətindən asılı olmayaraq eyni hüquq və azadlıqlara malikdir. Heç bir uşaq hər hansı xüsusiyyətinə görə fərqləndirilə və ya hüquqlarından məhrum edilə bilməz. Eyni zamanda Azərbaycanda yaşayan əcnəbi və vətəndaşlığı olmayan uşaqlar da qanunvericilikdə və beynəlxalq öhdəliklərdə başqa hal nəzərdə tutulmadığı təqdirdə bu qanunun təmin etdiyi bütün hüquq və imkanlardan yararlana biləcəklər.

Qanunda göstərilir ki, hər bir uşaq cəmiyyətdə bərabər hüquqlara sahibdir və heç bir halda ayrı-seçkiliklə üzləşməməlidir. Uşaqlar valideynlərinin və ya onları əvəz edən şəxslərin davranışlarına görə məsul tutulmur, bu səbəbdən onların hüquqlarının məhdudlaşdırılmasına da yol verilmir. Həmçinin uşağın nikah daxilində və ya nikahdankənar dünyaya gəlməsi onun hüquqlarına heç bir təsir göstərmir və hər iki valideynlə bağlı eyni hüquqlara malik olması təmin edilir. Dövlət eyni zamanda uşağın şəxsiyyətinin qorunmasına xüsusi önəm verir, onun adı, vətəndaşlığı və ailə bağlarının saxlanılması hüququnu müdafiə edir.

Qanuna əsasən, hər bir uşağın şəxsi və ailə həyatı dövlət tərəfindən qanunla qorunur və bu sahədə məxfiliyin saxlanılması təmin edilir. Qanunda nəzərdə tutulan istisna hallar xaric, uşağın şəxsi həyatına hər hansı müdaxilə yolverilməz sayılır. Eyni zamanda uşaqlar qanunsuz izlənmə, onların görüntüsünün və ya səsinin icazəsiz qeydə alınmasından hüquqi şəkildə müdafiə olunur. Beləliklə, video və foto çəkilişi, səs yazısı və digər oxşar müdaxilələr yalnız qanunla müəyyən edilmiş hallarda mümkündür.

Səkkiz fəsil, 63 maddədən ibarət qanunda uşaqlara qarşı cismani cəza anlayışı ayrıca təsbit olunur və bu cür halların yolverilməzliyi açıq şəkildə vurğulanır.

Qanun uşaq hüquqlarının daha səmərəli müdafiəsi ilə bağlı normaları özündə ehtiva edir. Erkən evliliklərin qarşısının alınması, uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququnun, şərəf və ləyaqətinin, fərdiliyinin və sosial müdafiəsinin təmin edilməsi, eləcə də uşaq alveri və istismarının qadağan olunması və digər məsələlər ilə bağlı irəli sürülən təkliflər sənəddə öz əksini tapıb.

Uşaqlar hər bir cəmiyyətin gələcəyidir. Onların sağlam, təhlükəsiz və hüquqları qorunan mühitdə böyüməsi sabahın daha güclü cəmiyyətinin formalaşmasına kömək edir. Yeni qanun da məhz bu məqsədə xidmət edir. Xüsusilə müasir dövrdə uşaqların təhlükəsizliyi və rifahı məsələsi daha böyük əhəmiyyət daşıyır. Qanun bu sahədə dövlətin məsuliyyətini daha da artırır.

Yeni hüquqi qaydalar dövlət qurumlarının fəaliyyətini daha koordinasiyalı hala gətirir. Aidiyyəti qurumlar uşaqlarla bağlı məsələlərə daha operativ yanaşa biləcəklər. Xüsusilə risk altında olan uşaqların vaxtında müəyyən edilməsi və müdafiəsi daha səmərəli olacaq. Bu qanun eyni zamanda ailə institutunun güclənməsinə də töhfə verəcək. Çünki uşağın hüquqlarının qorunması ailədə sağlam münasibətlərin formalaşmasını stimullaşdırır. Sağlam ailə isə sağlam cəmiyyət deməkdir. Cəmiyyətdə hər bir fərd bu qanunun əhəmiyyətini dərk etməlidir. Çünki uşaqların hüquqlarının qorunması bütün cəmiyyətin ortaq məsuliyyətidir.

Unutmayaq ki, uşağa göstərilən qayğı, əslində, ölkənin gələcəyinə göstərilən qayğıdır.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan Konqonun yenidən seçilən Prezidentinin andiçmə mərasimində təmsil olunub

**Aprelin 16-da paytaxt Brazzavil şəhərində Konqo Respublikasının yenidən seçilən Prezidenti Deni Sassu-Nqessonun andiçmə mərasimi keçirilib.**

Azərbaycanın Keniyadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, Prezident Deni Sassu-Nqessonun andiçmə mərasimində ölkəmizin Keniyadakı, eyni zamanda iqamətgahı Nayrobi şəhərində olmaqla Konqodakı səfiri Sultan Hacıyev iştirak edib.

Afrikanın 10-dan çox dövlət və hökumət başçısının, eləcə də bir çox dünya liderinin nümayəndələrinin iştirak etdiyi andiçmə mərasimi çərçivəsində səfir Sultan Hacıyev Prezident Deni Sassu-Nqessoya Azərbaycan Prezidenti İlham Əliyevin təbrikini və səmimi salamlarını çatdırıb. Ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin daha da inkişafına inamını ifadə edib.



Konqo Prezidenti onun da dərin ehtiramını və ən xoş arzularını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib. Azərbaycan hökumətinin bu mərasimdə təmsil olunmasına görə səfirə təşəkkür edib, həmçinin ölkəsi ilə Azərbaycan arasında mövcud əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Səfər çərçivəsində səfir Sultan Hacıyevin Konqonun xarici işlər, frankofoniya və xaricdə yaşayan konqolularla iş üzrə naziri Jan Klod Qakosso, nazir müavini Güi Nestor İtua ilə keçirdiyi görüşlərdə ikitərəfli əlaqələrin genişləndirilməsi və beynəlxalq platformalarda qarşılıqlı dəstək imkanları ilə bağlı müzakirə aparılıb. Səfir həmsöhbətlərinə WUF13-ə hazırlıq işləri barədə qısa məlumat verib və forum tarixində Azərbaycanın təşəbbüsü ilə ilk dəfə keçiriləcək Zirvə Toplantısında Afrika ölkələrinin dövlət və hökumət başçılarının iştirakının qitə üçün əhəmiyyətli olacağını vurğulayıb.

Qeyd edək ki, Prezident Deni Sassu-Nqessonun andiçmə zamanı ölkənin yeni inkişaf planı ilə bağlı səsləndirdiyi proqramda ölkənin əsas dəniz limanı və sənaye mərkəzi Port-Nuar şəhərinin urban və infrastruktur inkişafının əsas prioritetlərdən biri olduğunu vurğulayıb.

## "İstehlak bazarlarında texniki reqlamentlərin tələblərinə uyğun olmayan mallara qarşı nəzarət tədbirlərinin görülməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 94** **Bakı şəhəri, 6 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının 1.4.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İstehlak bazarlarında texniki reqlamentlərin tələblərinə uyğun olmayan mallara qarşı nəzarət tədbirlərinin görülməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Qaydası"nın və "Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 aprel tarixli 99 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 95** **Bakı şəhəri, 6 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Qaydası"nın və "Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 aprel tarixli 99 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 387) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Qaydası"nın 6.5-ci bəndində "3.1-3.3-cü, 3.5-3.7-ci" sözləri "3.1-ci, 3.2-ci, 3.5-ci və 3.6-cı" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarları" üzrə:

2.1.2-ci hissədəki cədvəl aşağıdakı redaksiyada verilsin:

| Meyarlar | Qiymətləndirilir (bal ilə) |
|---|---|
| 1. Mütəxəssis olduğu sahədə təcrübəsi | 0 – 55 |
| 2. Ölkənin sosial-iqtisadi inkişaf istiqamətləri ilə uyğunluğu | 0 – 20 |
| 3. Maliyyə təminatı | 0 – 15 |
| 4. Daxili əmək bazarına müsbət təsiri | 0 – 10 |

2.2. 3-cü hissə üzrə:

2.2.1. 3.1-ci bəndə "uyğunluğu," sözündən sonra "təhsili (təhsil səviyyəsi və pilləsi, təhsil aldığı təhsil müəssisəsinin reytinqi)," sözləri əlavə edilsin;

2.2.2. 3.3-cü, 3.4-cü, 3.7-ci və 3.8-ci bəndlər ləğv edilsin;

2.3. 4-cü hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 24 may tarixli 75 nömrəli, "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 25 yanvar tarixli 13 nömrəli və "Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" 2024-cü il 31 yanvar tarixli 62 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 107** **Bakı şəhəri, 17 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 466 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391 (Cild I); 2024, № 12 (II kitab), maddə 1455) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları" üzrə:

1.2.1.2-ci hissə üzrə:

1.2.1.1. 2.3-cü bəndin ikinci cümləsindən "mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələrinə," sözləri çıxarılsın;

1.2.1.2. 2.8-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qanunun 11.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərinin formalaşdırılması, toplanması, istifadəsi və uçotunun aparılması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydada həyata keçirilir.";

1.2.2. 3-cü hissə üzrə:

1.2.2.1.3.4.2.6-cı abzasda "və iqtisadi təsnifata uyğun olaraq paraqraf" sözləri "təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf və iqtisadi təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddə" sözləri ilə əvəz edilsin;

1.2.2.2. 3.4.2.9-cu abzas aşağıdakı redaksiyada verilsin:

"3.4.2.9. daxili və xarici dövlət borcuna xidmətlə bağlı xərclərin yuxarı hədləri, o cümlədən faiz xərcləri;";

1.2.2.3. 3.4.3-cü yarımbəndə "istiqamətləri" sözündən sonra "və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydaya uyğun ortamüddətli dövr üçün hədəf göstəriciləri" sözləri əlavə edilsin;

1.2.2.4. 3.4.5.1-ci və 3.4.5.2-ci abzaslar aşağıdakı redaksiyada verilsin:

"3.4.5.1. xarici dövlət borcuna xidmətlə bağlı xərclərin yuxarı hədləri, o cümlədən faiz xərcləri;

3.4.5.2. daxili dövlət borcuna xidmətlə bağlı xərclərin yuxarı hədləri, o cümlədən faiz xərcləri;";

1.2.3. 5-ci hissə üzrə:

1.2.3.1.aşağıdakı məzmunda 5.5-4-cü bənd əlavə edilsin:

"5.5-4. Qanunun 6.4-cü və 6.5-ci maddələrinə uyğun olaraq, dövlət büdcəsində nəzərdə tutulmuş məqsədli büdcə və ehtiyat fondlarından büdcə ili ərzində funksional, iqtisadi və inzibati təsnifata uyğun olaraq yönəldilən vəsaitlərin uçotu həmin vəsaitlərin ayrıldığı məqsədlərə uyğun funksional, iqtisadi və inzibati təsnifat üzrə aparılır.";

1.2.3.2. 5.9-cu bənd üzrə:

1.2.3.2.1. birinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Büdcə ili ərzində bu Qaydaların 5.5-ci bəndinə və 5.42-ci bəndinin altıncı abzasına uyğun olaraq dövlət büdcəsinin xərcləri üzrə aparılmış maliyyə əməliyyatları həmin ilin dövlət büdcəsinin icrasına dair aylıq, rüblük və illik hesabatlarda aparılmış dəyişikliyə müvafiq əks etdirilir və bu Qaydaların 3.4.2.17-ci və 3.4.2.18-ci abzaslarına uyğun olaraq təsdiq olunmuş göstəricilərdən kənarlaşma kimi qəbul edilmir.";

1.2.3.2.2. aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"Büdcə ili ərzində vahid xəzinə hesabının sərbəst qalığı bu Qaydaların 5.21-1.1-5.21-1.3-cü yarımbəndlərində göstərilən ödənişlər icra edilməklə bu Qaydaların 5.44-cü bəndi ilə müəyyən olunmuş qaydada idarə olunur və (və ya) idarəetməyə verilir.";

1.2.3.3. 5.13-cü bənddən "dövlət xəzinədarlığı tərəfindən qabaqcadan dövlət (büdcə) öhdəlikləri götürülür və bu öhdəliklər çərçivəsində satınalmalardan" sözləri çıxarılsın;

1.2.3.4. 5.20-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.20. Cari il üçün nəzərdə tutulan xərclərin maliyyələşdirilməsi həmin büdcə ili ərzində mümkün olmadıqda, belə xərclərin maliyyələşdirilməsi növbəti büdcə ilindəki ayırmalar hesabına təmin olunur.";

1.2.3.5. 5.21-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"İlin sonuna bütün xəzinə hesablarının qalıqları (bu Qaydaların 5.21-1.2.2-ci və 5.21-1.2.3-cü abzaslarında nəzərdə tutulmuş vəsaitlərə münasibətdə yalnız onların xərclərinin maliyyələşdirilməsi məqsədilə) vahid xəzinə hesabına köçürülür.";

1.2.3.6. aşağıdakı məzmunda 5.21-1-ci bənd əlavə edilsin:

"5.21-1. Vahid xəzinə hesabının sərbəst qalığı aşağıdakı istiqamətlərə yönəldilir:

5.21-1.1 Qanunun 15.4-sü maddəsi tətbiq edildiyi halda, Qanunun 7-ci maddəsində göstərilən xərclərin maliyyələşdirilməsinə;

5.21-1.2. dövlət büdcəsi kəsirinin və onun daxilində aşağıdakı xərclərin (fərqin) maliyyələşdirilməsinə:

5.21-1.2.1. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş qaydada şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsində nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsi hesabına yerli icra hakimiyyəti orqanlarının büdcədənkənar xərcləri;

5.21-1.2.2. Dövlət Əməyin Mühafizəsi Fondunun ilin sonuna qalan istifadə olunmamış vəsaiti hesabına onların xərcləri (hər il üçün təsdiq olunan dövlət büdcəsi haqqında qanuna uyğun olaraq proqnozlaşdırılan gəlirlərin məbləği proqnozlaşdırılan xərclərin məbləğindən, habelə faktiki daxilolmalarının məbləği xərclərin məbləğindən az olduqda);

5.21-1.2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışından əldə olunan və ilin sonuna qalan xərclənməmiş vəsait hesabına Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydaya uyğun olaraq xərcləri (hər il üçün təsdiq olunan dövlət büdcəsi haqqında qanuna uyğun olaraq proqnozlaşdırılan gəlirlərin məbləği proqnozlaşdırılan xərclərin məbləğindən, habelə faktiki daxilolmalarının məbləği xərclərin məbləğindən az olduqda).

5.21-1.3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmış məbləğdə Dövlət borcu və zəmanəti üzrə Təminat Fondunun vəsaitlərinin artırılmasına.";

1.2.3.7. 5.39-cu bənddə "aparırlar" sözü "aparılır" sözü ilə əvəz edilsin;

1.2.3.8. 5.42-ci bəndin beşinci abzasına "Fonduna" sözündən sonra "və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fonduna" sözləri əlavə edilsin;

1.2.3.9. 5.44-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.44. Büdcə ili ərzində vahid xəzinə hesabının qalığı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən idarə olunur və (və ya) idarəetməyə verilir. Qanunun 19.2-1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

1.2.3.10. aşağıdakı məzmunda 5.45-ci bənd əlavə edilsin:

"5.45. "Büdcə ili ərzində yaranan büdcə artıqlığının (profisitin) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən müəyyən edilən hissəsi həmin Nazirlik tərəfindən Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna köçürülə bilər.";

1.2.4. həmin Qaydaların "Qeyd" hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 57 (Cild I); 2025, № 9, maddə 864) ilə təsdiq edilmiş "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın 3.8-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.8. Fondun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına köçürülür.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 129) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası"nın 3.5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.5. Fondun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına köçürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 96** **Bakı şəhəri, 6 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (ll kitab), maddələr 1207, 1233, 1257; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 2 fevral tarixli 34 nömrəli, 24 fevral tarixli 48 və 50 nömrəli, 3 mart tarixli 62 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı" üzrə:

1.1. 1.1.1.2.1.2-ci yarımmaddədə "Səhmlərinin" sözü "Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin" sözləri ilə əvəz edilsin;

1.2. 1.1.1.2.1.3-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.1.2.1.4-cü yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 1 | 2 | 1 | 4 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə mənfəət vergisi |

1.3. 1.1.1.2.3.0-cı maddədən sonra 1.1.1.2.3.1-1.1.1.2.3.3-cü yarımmaddələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 1 | 2 | 3 | 1 | Neft fəaliyyəti ilə bağlı hasilatın pay bölgüsü sazişləri üzrə podratçı tərəflərin mənfəət vergisi |
| 1 | 1 | 1 | 2 | 3 | 2 | Qaz fəaliyyəti ilə bağlı hasilatın pay bölgüsü sazişləri üzrə podratçı tərəflərin mənfəət vergisi |
| 1 | 1 | 1 | 2 | 3 | 3 | Digər fəaliyyətlə bağlı hasilatın pay bölgüsü sazişləri üzrə podratçı tərəflərin mənfəət vergisi |

1.4. 1.1.3.1.1.2-ci yarımmaddədə "Səhmlərinin" sözü "Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin" sözləri ilə əvəz edilsin;

1.5. 1.1.3.1.1.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.1.1.5-ci yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 1 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |

1.6. 1.1.3.1.2.2-ci yarımmaddədə "Səhmlərinin" sözü "Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin" sözləri ilə əvəz edilsin;

1.7. 1.1.3.1.2.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.1.2.5-ci yarımmaddə əlavə edilsin;

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 2 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |

1.8. 1.1.3.1.4.2-ci yarımmaddədə "Səhmlərinin" sözü "Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin" sözləri ilə əvəz edilsin;

1.9. 1.1.3.1.4.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.1.4.5-ci yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 4 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |

1.10. 1.1.3.1.5.2-ci yarımmaddədə "Səhmlərinin" sözü "Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin" sözləri ilə əvəz edilsin;

1.11. 1.1.3.1.5.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.1.5.5-ci yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 5 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |

1.12. 1.1.3.2.1.2-ci yarımmaddədə "Səhmlərinin" sözü "Qeyri neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin" sözləri ilə əvəz edilsin;

1.13. 1.1.3.2.1.3-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.2.1.4-cü yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 2 | 1 | 4 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əmlak vergisi |

1.14. 1.1.4.1.1.2-ci yarımmaddədə "Səhmlərinin" sözü "Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin" sözləri ilə əvəz edilsin;

1.15. 1.1.4.1.1.8-ci yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.4.1.1.9-cu yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 1 | 1 | 9 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əlavə dəyər vergisi |

1.16. 1.1.4.1.2.2-ci yarımmaddədə "Səhmlərinin" sözü "Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin" sözləri ilə əvəz edilsin;

1.17. 1.1.4.1.2.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.4.1.2.5-ci yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 1 | 2 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əlavə dəyər vergisi |

1.18. 1.4.2.1.8.0-cı maddədə "Müsadirə" sözü "Xüsusi müsadirə edilmiş, müsadirə" sözləri ilə əvəz edilsin;

1.19. 1.4.2.1.8.5-ci yarımmaddədən sonra aşağıdakı məzmunda 1.4.2.1.8.6-cı yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 1 | 8 | 6 | Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında dövlət mülkiyyətinə keçməklə xüsusi müsadirə edilmiş əmlakın satışından daxilolmalar |

1.20. 1.4.2.2.6.0-cı maddədə "Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsinə və nəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsinə görə" sözləri "Avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşımalarına icazənin verilməsi, nəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsi və ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazənin verilməsi üçün" sözləri ilə əvəz edilsin;

1.21. 1.4.2.2.6.1-ci yarımmaddədə "Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsinə görə" sözləri "Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi üçün" sözləri ilə əvəz edilsin;

1.22. 1.4.2.2.6.2-ci yarımmaddədə ", qoşquların və yarımqoşquların" sözləri "qanunla müəyyən edilmiş hallarda" sözləri ilə əvəz edilsin;

1.23. 1.4.2.2.6.2-ci yarımmaddədən sonra 1.4.2.2.6.3-1.4.2.2.6.6-cı yarımmaddələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 2 | 6 | 3 | Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək məqsədilə operatorlara beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi üçün |
| 1 | 4 | 2 | 2 | 6 | 4 | Taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsi üçün |
| 1 | 4 | 2 | 2 | 6 | 5 | Nəqliyyat vasitələrinin texniki uçot göstəricilərinə dəyişikliklər edilməsi zamanı və ya nəqliyyat vasitəsi alıcısının tələbi ilə nəqliyyat vasitələrinə texniki baxış keçirilməsi üçün |
| 1 | 4 | 2 | 2 | 6 | 6 | Ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazənin verilməsi üçün |

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə" üzrə:

2.1. 1.1.1.2-ci yarımbənddə aşağıdakı dəyişikliklər edilsin:

2.1.1. birinci abzasa "səhmlərinin" sözündən əvvəl "neft-qaz və qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən," sözləri əlavə edilsin;

2.1.2. beşinci abzasda hər iki halda "podratçı tərəflərin" sözləri "neft, qaz və digər fəaliyyətlə bağlı podratçı tərəflərin mənfəət vergisi" sözləri ilə əvəz edilsin;

2.2. 1.4.2.1-ci yarımbəndin ikinci abzası yeni redaksiyada verilsin:

"Dövlət orqanları tərəfindən xüsusi müsadirə edilmiş, müsadirə edilmiş, sahibsiz qalmış və vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçmiş əmlakın və dəfinələrin satışından daxilolmalar müvafiq qanunvericilik aktları ilə tənzimlənir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 dekabr tarixli 240 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 106** **Bakı şəhəri, 16 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 3.10-cu bəndinin və "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 564 nömrəli Fərmanının 3.9-cu bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 dekabr tarixli 240 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 178 (Cild I); 2024, № 4, maddə 456, № 6 (II kitab), maddə 737, № 12 (I kitab), maddə 1317) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin Nizamnaməsi"nin 5.1-ci bəndində "473605880 (dörd yüz yetmiş üç milyon altı yüz beş min səkkiz yüz səksən)" sözləri "567 605 880 (beş yüz altmış yeddi milyon altı yüz beş min səkkiz yüz səksən)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# Qlobal platformalarda Azərbaycanın artan rolu və nüfuzu

## İlham Əliyevin diplomatik strategiyası ölkəmizi beynəlxalq tədbirlərin vazkeçilməz iştirakçısına çevirib

**Azərbaycan diplomatiyası ən parlaq dövrünü yaşayır. Prezident İlham Əliyevin uğurlu strategiyası və ölkəmizin beynəlxalq platformalarda xüsusi fəallığı Azərbaycanı dünya siyasətinin mühüm aktorlarından birinə çevirib. Regional və qobal müstəvidə Azərbaycanın artan rolu və nüfuzu dövlətimizi bəşəriyyəti narahat edən problemlərin həllində açar ölkə statusuna yüksəldib.**

İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə ölkəmiz beynəlxalq tədbirlərdə, sadəcə, iştirakçı qismində deyil, strateji baxışları böyük maraq doğuran aparıcı ölkə kimi çıxış edir. Münxendən Davosa, Şanxaydan Antalyaya qədər uzanan diplomatik coğrafiya Azərbaycanın beynəlxalq aləmdə nə dərəcədə arzulanan və etibarlı tərəfdaş olduğunu bir daha təsdiqləyir.

Aprelin 17-də Türkiyədə dünyanın ən genişmiqyaslı diplomatiya platformalarından biri olan 5-ci Antalya Diplomatiya Forumu öz işinə başlayıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi foruma 150 ölkədən 500-dən çox yüksəksəviyyəli rəsmi şəxs qatılıb. Dövlət başçılarının təxminən yarısı Avropa və Afrika ölkələrini təmsil edir. Aprelin 19-dək davam edəcək forumda üç gün ərzində akademiklər və tələbələr də daxil olmaqla, ümumilikdə 5 min nəfərin iştirak edəcəyi deyilir.

Antalya Diplomatiya Forumu müxtəlif ölkələrdən nüfuzlu siyasətçiləri bir araya gətirərək, son illər ərzində region üçün əhəmiyyət kəsb edən ən önəmli məsələlərin və çağırışların müzakirəsi baxımından çox vacib beynəlxalq platformaya çevrilib. Forumun builki mövzusu "Gələcəyi formalaşdırarkən qeyri-müəyyənliklərlə mübarizə"dir. Bu mövzu daha yaxşı gələcək qurmaq üçün problemləri əvvəlcədən görməyin və effektiv şəkildə həll etməyin vacibliyinə diqqət çəkir. Bunu reallaşdırmaq üçün isə imkan və risklərin düzgün müəyyənləşdirilməsi, yeni strategiyaların hazırlanması və qazanılmış təcrübənin real fəaliyyətlərə çevrilməsi olduqca vacibdir.

Forumun keçirildiyi gün Azərbaycan Prezidenti İlham Əliyev Antalyada Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb. Söhbət zamanı Azərbaycan-Moldova münasibətlərinin perspektivləri müzakirə olunub, əlaqələrimizin inkişaf etdiyi vurğulanıb. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından roluna toxunulub. Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulanıb. Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycan tərəfindən nümayiş olunan dəstək bir daha yüksək qiymətləndirilib. Dövlətimizin başçısının Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla da görüşü olub. Görüşdə Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi daimi dəstəyə toxunulub. Azərbaycan Prezidenti ölkəmizin həmişə Şimali Kipr Türk Cümhuriyyətinin yanında olduğunu deyərək, göstərilən dəstəyin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb. Söhbət zamanı Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi qeyd olunub.

Prezident İlham Əliyevin forum çərçivəsində görüşdüyü digər liderlərdən biri də Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa olub. Dövlət başçıları enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunaraq, bu xüsusda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçirilməsinin əhəmiyyətini qeyd ediblər. Əhməd Əl Şaraa Azərbaycanın Suriyaya göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlıq edib. Prezident İlham Əliyev Antalyada Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə də görüşüb.

Ümumiyyətlə, Prezident İlham Əliyevin forum çərçivəsində keçirdiyi görüşlər Azərbaycanın beynəlxalq nüfuzunun artması və qlobal diplomatik proseslərdə rolunun güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Aparılan yüksəksəviyyəli danışıqlar Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir və yeni əməkdaşlıq platformalarının formalaşmasına şərait yaradır.

Azərbaycanın nüfuzlu qlobal müzakirə platformalarına mütəmadi dəvət edilməsi, dövlətimizin başçısı İlham Əliyevin çıxışlarına böyük maraq göstərilməsi təsadüfi xarakter daşımır. Bu, 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqların və Azərbaycanın dünyada sülh, sabitlik və əməkdaşlıq simvolu kimi qəbul edilməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin mütəmadi olaraq mötəbər regional və qlobal toplantılarda iştirakı, habelə Bakının evsahibliyi etdiyi yüksəksəviyyəli sammitlər Azərbaycanın qazandığı etimadın bariz nümunəsidir.

Dövlətimizin başçısının yürütdüyü uzaqgörən və praqmatik siyasət sayəsində ölkəmiz dünya miqyasında əsas siyasi, iqtisadi və humanitar mərkəzlərdən birinə çevrilib. Beynəlxalq müstəvidə siyasi çəkisinin artması Azərbaycanı qlobal hadisələrə təsir edə bilən etibarlı tərəfdaş kimi möhkəmləndirib. Hazırda Azərbaycan beynəlxalq arenada sabitliyin, dinamik inkişafın və konstruktiv əməkdaşlığın rəmzi hesab olunur. Bakı ilə tərəfdaşlıq etmək niyyətində olan xarici dövlətlərin və beynəlxalq təşkilatların sayı mütəmadi olaraq çoxalır. Bu uğurun təməlində isə Azərbaycan liderinin balanslı xarici siyasəti, qarşılıqlı hörmət və ortaq maraqlara əsaslanan bərabərhüquqlu münasibətlər dayanır. Bu da ölkəmizin beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldir.

Azərbaycanın beynəlxalq platformalarda mərkəzi fiqura çevrilməsinin təməl səbəblərindən biri odur ki, dövlətimiz beynəlxalq öhdəliklərinə sadiq qalan, etibarlı tərəfdaş imicinə malikdir. Prezident İlham Əliyevin beynəlxalq münasibətlər sistemindəki böyük təcrübəsi, strateji baxışları, mürəkkəb geosiyasi situasiyalarda nümayiş etdirdiyi praqmatizm və beynəlxalq hüquqa əsaslanan mövqeyi dövlətimizin başçısını beynəlxalq forumların ən çox diqqət mərkəzində olan liderinə, sözü dinlənilən natiqlərindən birinə çevirib. Prezidentimizin iştirak etdiyi hər platforma, keçirilən görüşlər və əldə olunan razılaşmalar diplomatik münasibətləri real nəticələr və strateji məzmun baxımından tamamilə yeni, daha yüksək bir müstəviyə daşıyır. Real həllər təklif edən İlham Əliyevin beynəlxalq platformalardakı çıxışları strateji dəqiqliklə yadda qalır.

Son dövrdə Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət Görüşündə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Görüşündə, Şanxay Əməkdaşlıq Təşkilatının sammitlərində, Ərəb Dövlətləri Liqasının 31-ci Sammitində, SPECA - Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi BMT Proqramının Zirvə Görüşündə, Münxen Təhlükəsizlik Konfransı və Davos İqtisadi Forumunda, Avropa Siyasi Birliyinin sammitlərində iştirakı ölkəmizə marağın əyani təcəssümüdür. Bununla yanaşı, Qoşulmama Hərəkatına uğurlu sədrlik təcrübəsi Azərbaycanın fərqli bloklar arasında körpü qurmaq qabiliyyətini sübut etdi. Azərbaycanın ən böyük qlobal tədbirlərdən biri olan COP29-a evsahibliyi etməsi ölkəmizin bəşəri problemlərin həllində aparıcı dövlət kimi qəbul olunduğunu təsdiqləyir. Bu gün dünya paytaxtları və beynəlxalq təşkilatlar hər hansı regional və ya qlobal layihəni Azərbaycanın rəyi və iştirakı olmadan təsəvvür etmirlər.

Azərbaycanın diplomatik uğurları düşünülmüş və milli maraqlara söykənən strateji kursun məntiqi yekunudur. Prezident İlham Əliyevin beynəlxalq müstəvidə nümayiş etdirdiyi prinsipiallıq Azərbaycanı qlobal qeyri-müəyyənliklər dövründə bəşəri təşəbbüslərlə çıxış edən ən etibarlı tərəfdaşa çevirir. Bu gün beynəlxalq sənədlərdə dövlətimizin imzası təkcə tərəfdaşlığın təsdiqi deyil, həm də yeni dünya nizamının formalaşmasında mühüm bir iradənin təzahürüdür.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

---

## "Hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılıq verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 108** **Bakı şəhəri, 17 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılıq verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

---

## "Ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura səviyyələri üzrə ixtisasların təsnifatının təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın, "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 14 iyun tarixli 95 nömrəli, "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2009-cu il 12 yanvar tarixli 8 nömrəli, "Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli və "Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi və "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 8 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" 2012-ci il 24 dekabr tarixli 314 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 fevral tarixli 45 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli 503 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 109** **Bakı şəhəri, 17 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli 503 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (I kitab), maddə 1308) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı"na aşağıdakı məzmunda 6.46-cı bənd əlavə edilsin:

| | | |
|---|---|---|
| 6.46. | 6006046 | Daşınmaz əmlakın idarə olunması |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

# Dövlət həmişə vətəndaşının yanındadır

**Azərbaycan və Rusiya Xarici İşlər nazirliklərinin bu il aprelin 15-də verdikləri birgə bəyanatı rəsmi Bakının illərdir yürütdüyü qətiyyətli və prinsipial xarici siyasət kursunun növbəti əməli nəticəsi kimi tarixə düşdü. Bəyanata əsasən, tərəflər 2024-cü il dekabrın 25-də Rusiyanın hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus "Embraer 190" tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər. Bu, Azərbaycan və Rusiya prezidentlərinin Düşənbə şəhərində 2025-ci il oktyabrın 9-da keçirilən görüşü zamanı əldə olunmuş anlaşmaya uyğun olaraq həyata keçirilir.**

Birgə Bəyanat Azərbaycan dövlətinin öz vətəndaşının hüquqlarını ən ali səviyyədə qorumaq iradəsinin və istənilən güc qarşısında milli maraqlarını qətiyyətlə müdafiə etmək bacarığının bariz sübutudur.

### Yüksək siyasi iradə nümayiş etdirildi

İki ölkə arasında əldə olunan bu razılaşmanın təməlində isə Azərbaycan tərəfindən hadisənin ilk günündən nümayiş etdirilən yüksək siyasi iradə dayanır.

Prezident İlham Əliyev hadisənin ilk günündən məsələni diqqətdə saxladı, ədalətin təmin edilməsi üçün qəti mövqe ortaya qoydu. Azərbaycan tərəfi ən ali səviyyədə Rusiyadan törətdiyi əmələ görə üzr istəməsini, kompensasiya ödəməsini və bu faciənin törədilməsində günahı olanların cəzalandırılmasını qətiyyətlə tələb etdi.

Bu mövqe ötən ilin oktyabrında Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının iclası zamanı bir daha nümayiş etdirildi. Adıçəkilən iclas çərçivəsində dövlətimizin başçısı İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında baş tutmuş görüş Azərbaycanın növbəti diplomatik uğuru kimi dəyərləndirilməlidir. Çünki iki qonşu ölkənin lideri arasında keçirilən görüş həm də Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələyə keçid oldu.

25 dekabr 2024-cü ildə baş vermiş faciəvi hadisə görüşün əsas mövzusunu təşkil etdi. Həmin tarixdə "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Rusiya Hava Hücumundan Müdafiə sistemləri tərəfindən vurulması nəticəsində təyyarədə olan 67 nəfərdən 38-i həlak olub, yalnız pilotlarımızın qəhrəmanlığı sayəsində 29 nəfər sağ qalıb, onların da hamısı yaralanıb. Baş verən faciə Azərbaycan-Rusiya münasibətlərində ciddi gərginlik yaratmışdı.

Düzdür, qəza baş verdikdən bir az sonra Rusiya Prezidenti dövlətimizin rəhbərinə zəng vuraraq bununla bağlı üzrxahlığını dilə gətirmişdi, amma digər tələb edilən məsələlər açıq qalmışdı ki, bu da təbii olaraq iki dövlət arasında münasibətlərin soyumasına gətirib çıxarmışdı.

Rusiyanın HHM sistemlərinin bu faciəyə səbəb olduğunu etiraf edən Kreml rəhbəri əlavə etdi ki, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

### Qətiyyətli siyasət, prinsipial mövqe

Azərbaycan və Rusiya Xarici İşlər nazirliklərinin birgə bəyanatında da qeyd olunur ki, atılan addımlar müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir: "Əminik ki, Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafı bundan sonra da mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcək".

Bütün bunlar Bakının qətiyyətli siyasətinin, prinsipial mövqeyinin göstəricisidir. Bu həm də onu sübut edir ki, Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev hər bir vətəndaşımızın problemi ilə yaxından maraqlanır, onun həlli istiqamətində əməli addımlar atır. Ölkəmiz öz haqqını tələb etmək və ona nail olmaq gücündədir. Bu zəfər həm diplomatiyamızın, həm də milli birliyimizin sarsılmazlığının növbəti təsdiqidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

---

# Ədaləti təmin edən qətiyyət

**Xəbər verildiyi kimi, Azərbaycan və Rusiya prezidentlərinin Düşənbə şəhərində 9 oktyabr 2025-ci il tarixli görüşü zamanı əldə olunmuş anlaşmaya uyğun olaraq, tərəflər 25 dekabr 2024-cü ildə Rusiya Federasiyasının hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində "Azərbaycan Hava Yolları"na məxsus "Embraer 190" tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər.**

Bu isə atılan addımların müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir. Eyni zamanda Azərbaycanın yürütdüyü düşünülmüş, davamlı siyasətin uğurlarından biri kimi qiymətləndirilə bilər.

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında deyib ki, AZAL-a məxsus sərnişin təyyarəsinin 2024-cü ilin 25 dekabrında vurulması ilə bağlı Azərbaycanın Rusiya qarşısında irəli sürdüyü bütün tələblərin yerinə yetiriləcəyi haqda hər iki ölkənin xarici işlər nazirliklərinin birgə bəyanatı ölkələrimiz arasında əlaqələrin normal qonşuluq, qarşılıqlı fayda və hörmət çərçivəsində davam etdiriləcəyi təəssüratı yaradır: "Bu, mühüm addımdır və alqışlayıram. Burada "təəssüratı yaradır" ifadəsini təsadüfən qeyd etməmişəm. Çünki ötən il oktyabrın 9-da Azərbaycan və Rusiya prezidentlərinin Düşənbədəki görüşlərindən,



orada təyyarəmizin vurulmasına görə ən yüksək səviyyədə üzrxahlığa və ardınca lazımi digər addımların da atılacağının vəd edilməsinə baxmayaraq, bundan heç 3 ay keçməmiş Rusiyanın İstintaq Komitəsinin sözügedən məsələ ilə bağlı qaldırılan cinayət işinə xitam verildiyini bildirməsinin şahidi olmuşduq. Qarşı tərəf yenə ən yüksək səviyyədə müəyyən təhriflərə yol verərək, həmin təyyarənin vurulduğunun necə baş verdiyinin hər kəsə məlum olduğu halda Rusiyanın İstintaq Komitəsinin "AZAL-a məxsus təyyarə Rusiyada əlverişsiz hava şəraiti səbəbindən enə bilməyib, daha sonra eniş zamanı yerə çırpılıb" rəyi təkcə onu hazırlayanların və həmin qurumun başında duranların hansı səviyyədə olduqlarından xəbər verirdi".

Sahib Alıyevin sözlərinə görə, vurulan təyyarə ilə bağlı Azərbaycanın sırf beynəlxalq hüquqa, öz təcrübəsinə və normal qonşuluq ənənəsinə dayanan tələbi, nə qədər tez yerinə yetirilsəydi, hər iki tərəf üçün o qədər yaxşı olardı. Amma necə deyərlər, ziyanın yarısından qayıtmaq da xeyirdir. İlk növbədə də qayıdanın özü üçün xeyirdir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

## Azərbaycan-Rusiya: regional əməkdaşlığın Şərqi Zəngəzur mərhələsi

### A.OVERÇUK: "Bu ərazilər birgə layihələr üçün yeni imkanlar yaradır"

**Azərbaycan və Rusiya Hökumətlərarası Komissiyasının budəfəki iclası işğaldan azad olunmuş Zəngilan rayonunda keçirildi. Bu, komissiyanın sayca 24-cü iclası idi və özəlliyi onda idi ki, qonaqlar "ağıllı kənd"imiz Ağalı ilə ətraflı tanış oldular.**



İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, kəndin bütün evlərinə müasir kommunikasiya xətləri çəkilib, qazlaşdırma tam təmin olunub, hər bir ev kombi sistemi ilə təchiz edilib. Bununla yanaşı, ərazidə yol və səkilərin abadlaşdırılması, ictimai binaların və infrastruktur obyektlərinin istifadəyə hazırlanması istiqamətində də işlər görülüb.

İştirakçılar eləcə də Ağbənd avtomobil körpüsü, Horadiz-Ağbənd dəmir yolu layihəsi, sərhəd-keçid məntəqəsinin infrastrukturunun tikintisi ilə tanış olublar. Diqqətə çatdırılıb ki, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yeni qolunun əsas komponenti, Horadiz-Ağbənd dəmir yolu Zəngəzur dəhlizinin (TRIPP) mühüm halqasını formalaşdıracaq.

Rusiya Baş nazirinin müavini Aleksey Overçuk bildirib ki, iclasın Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunda keçirilməsi regionda əməkdaşlığın yeni mərhələsini əks etdirir. Qeyd edək ki, Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclasının həmsədrləri Azərbaycan tərəfdən Baş nazirin müavini Şahin Mustafayev, Rusiya tərəfdən isə Baş nazirin müavini Aleksey Overçuk olmuşlar. İclasa hər iki ölkənin müvafiq nazirlik və qurumlarının nümayəndələri qatılmışlar.

Hazırda iki ölkə arasında uğurlu əməkdaşlıq nümunələri mövcuddur və bu proses genişlənməkdədir. İkitərəfli əməkdaşlığın ardıcıl və dinamik inkişafı dövlətimizin başçısı İlham Əliyev və Rusiyanın Prezidenti Vladimir Putin tərəfindən həyata keçirilən siyasi iradə və strateji kursla müəyyən olunur. Xüsusilə 2022-ci ildə imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə ikitərəfli münasibətlərə mühüm təkan verir. Mürəkkəb regional şəraitə baxmayaraq, əməkdaşlıq davamlı şəkildə inkişaf edir.

Biznes dairələrinin qarşılıqlı biznes missiyalarda və beynəlxalq sərgilərdə iştiraka marağı artır. Bu da iqtisadi əlaqələrin dərinləşməsinə xidmət edir. 2025-ci ilin yekunlarına əsasən, Azərbaycan və Rusiya arasında ticarət dövriyyəsi 4,9 milyard dollara çatıb. Tərəflər mal çeşidinin genişləndirilməsi və ticarət həcminin artırılması üzərində birgə işləyirlər. İki ölkə arasında hesablaşmaların əsas hissəsi milli valyutalarla aparılır ki, bu da iqtisadi inteqrasiyanı daha da gücləndirir. Kənd təsərrüfatı məhsulları üzrə ticarət xüsusi əhəmiyyət daşıyır. Belə ki, Rusiya bazarı Azərbaycan qeyri-neft ixracının əsas istiqamətlərindən biri olaraq qalır. Bir sözlə, ticarət-iqtisadi əməkdaşlığı Azərbaycan-Rusiya münasibətlərinin əsas istiqamətlərindəndir.

Təsadüfi deyil ki, Baş nazirin müavini Şahin Mustafayev öz çıxışında investisiya əməkdaşlığının müsbət dinamikasını xüsusi qeyd edib. Bildirilib ki, Rusiyanın Azərbaycana yatırdığı ümumi investisiyaların həcmi 10,5 milyard dolları, o cümlədən qeyri-neft sektorunda 2,9 milyard dolları ötüb. İnvestisiya əməkdaşlığı müsbət dinamika nümayiş etdirir və Azərbaycanda 1400-dən çox Rusiya şirkəti fəaliyyət göstərir. Eyni zamanda Azərbaycan investisiyalarının da Rusiya iqtisadiyyatında mövqelərinin möhkəmləndiyi, sanatoriya, sənaye və istehsal layihələrinin uğurla icra olunduğu bildirilib.

Nəqliyyat-logistika sahəsi əməkdaşlığın prioritet istiqamətlərindən biri kimi dəyərləndirilir. İclasda xüsusilə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının strateji əhəmiyyəti vurğulanıb, dəhliz üzrə infrastrukturun modernləşdirilməsi və rəqəmsallaşdırmanın yükdaşımaların həcmini əhəmiyyətli dərəcədə artıracağı qeyd olunub. Bildirilib ki, 2028-ci ildən etibarən Azərbaycan ərazisindən illik daşımaların həcmi azı 5 milyon ton, sonrakı mərhələdə isə 15 milyon ton səviyyəsinə çatdırılacaq.

Araz Vadisi İqtisadi Zonasında "KamAZ" servis mərkəzinin və Qubadlının Mahruzlu kəndində Həştərxan qubernatorluğu tərəfindən uşaq bağçasının tikintisi əməkdaşlıq nümunəsi kimi yüksək qiymətləndirilir.

Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk ölkələrimiz arasında əməkdaşlığın strateji xarakter daşıdığını qeyd edib. Nəqliyyat-logistika, sənaye və aqrar sahələrinin əsas prioritetlər olduğu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının regional və beynəlxalq ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynadığı vurğulanıb. A.Overçuk Zəngilanda aparılan bərpa işlərini yüksək qiymətləndirərək, bu ərazilərin birgə layihələr üçün yeni imkanlar yaratdığını da bildirib.

Aparılan müzakirələr göstərdi ki, tərəflər ticarət, investisiya, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, energetika, turizm və humanitar sahələr üzrə əməkdaşlığın perspektivli olmasında maraqlıdırlar. Azərbaycanda və Rusiyada avtomobil nəqliyyatı üçün elektron beynəlxalq yük qaiməsi (e-CMR) tətbiqi üzrə şəraitin yaradılmasına dair imzalanan "Yol Xəritəsi" ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsini, qarşılıqlı investisiyaların təşviqini, eləcə də müxtəlif sahələr üzrə birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur.

İclasın yekunlarına dair imzalanan protokol da Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiriləcəyini, əldə olunmuş razılaşmaların ardıcıl şəkildə icrasının davam etdiriləcəyini vurğulayır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## İşğaldan azad edilmiş ərazilərdə məşğulluğun təminatı üçün işəgötürənlərlə birgə ardıcıl işlər aparılır

**"Böyük qayıdış" proqramına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işğaldan azad olunmuş ərazilərdə əhalinin dayanıqlı məşğulluğunun təmin olunması istiqamətində işəgötürənlərlə birgə ardıcıl işlər aparır.**



Bu barədə nazirlikdə işəgötürənlərlə keçirilən növbəti görüşdə bildirilib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev doğma yurdlarına qayıdan sakinlərin həm işlə təminatı, həm yeni peşələrə yiyələnməsi, həm də özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə bizneslərinin qurulması sahəsində aparılan işləri diqqətə çatdırıb.

Görüşdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, "Təmiz Şəhər" ASC, "Azərişıq" ASC, "Azərenerji" ASC, SOCAR, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti və Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin nümayəndələri iştirak ediblər.

İşğaldan azad olunmuş ərazilərdə işçi və işəgötürənlər üçün tətbiq olunan güzəşt və imtiyazlar da diqqətə çatdırılıb. Həmin bölgələrdə məskunlaşan və məskunlaşması nəzərdə tutulan vətəndaşların məşğulluğunun təmin olunması sahəsində görüləcək birgə işlər müzakirə edilib.

## Ölkə üzrə 3 ayda 6,9 milyard kilovat-saatdan çox elektrik enerjisi istehsal olunub

**2026-cı ilin 1-ci rübü ərzində Azərbaycanda elektrik enerjisinin istehsalı 6 milyard 991 milyon kilovat-saat olub. Bu da 2025-ci ilin eyni ayları ilə müqayisədə 2,5 faiz azdır.**

Energetika Nazirliyindən bildirilib ki, bu dövrdə İES-lərdə 6 milyard 66 milyon kilovat-saat (4 faiz azalma), SES-lərdə 510,5 milyon kilovat-saat (23,8 faiz azalma), digər mənbələr üzrə isə 414,5 milyon kilovat-saat (2,3 dəfə artım), o cümlədən külək-elektrik stansiyalarında 247,7 milyon kilovat-saat (26,1 dəfə artım), günəş-elektrik stansiyalarında 91,3 milyon kilovat-saat (18,8 faiz azalma), Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 75,5 milyon kilovat-saat (22 faiz artım) elektrik enerjisi istehsal edilib.

Yanvar-mart aylarında 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə külək-elektrik stansiyalarında elektrik enerjisi istehsalı 238,2 milyon kilovat-saat artıb. Ümumilikdə SES-lər də daxil olmaqla, bərpaolunan enerji mənbələri üzrə elektrik enerjisi istehsalı 925 milyon kilovat-saat (8,4 faiz artım) təşkil edib.

## İlk rübdə əlilliyi olan 30 mindən çox şəxsə reabilitasiya xidmətləri göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi cari ilin yanvar-mart ayları ərzində əlilliyi olan 30,2 min şəxsi reabilitasiya xidmətləri ilə təmin edib.**

Onlardan 15,2 mininə ambulator, 7,5 mininə stasionar və icma əsaslı, digərlərinə səyyar və onlayn formada, sosial-psixoloji, istiqamətləri üzrə reabilitasiya xidmətləri göstərilib. Agentliyin reabilitasiya müəssisələrində ənənəvi üsullarla yanaşı, qabaqcıl dünya təcrübəsinə uyğun reabilitasiya metodları (robotik, sosial-psixoloji reabilitasiya, yoqa, ippoterapiya, rəqs terapiyası və s.) tətbiq edilir.

Bu müəssisələr tərəfindən stasionar və ambulator xidmətlərlə bərabər, icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətləri göstərilir.

## Azərbaycan-Latviya iqtisadi əməkdaşlığında perspektivli sahələr

### Kənd təsərrüfatı, ticarət, tranzit daşımalar, turizm...

**Xəbər verildiyi kimi, Şuşada Azərbaycan-Latviya Hökumətlərarası Komissiyasının 9-cu iclası keçirilib. Görüşdə iki ölkə arasında iqtisadi, ticarət, enerji və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Tərəflər qarşılıqlı investisiya imkanlarının artırılması və biznes əlaqələrinin inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparıblar. İclas çərçivəsində regionlararası əməkdaşlıq, mədəni əlaqələrin gücləndirilməsi və qarşılıqlı səfərlərin intensivləşdirilməsi məsələlərinə də toxunulub.**

Azərbaycan və Latviya arasında iqtisadi əlaqələr son illər davamlı inkişaf dinamikası nümayiş etdirir. Ticarət dövriyyəsinin artması, nəqliyyat-logistika sahəsində əməkdaşlıq və Orta dəhliz çərçivəsində birgə layihələr iki ölkə arasında iqtisadi münasibətlərin əsas istiqamətlərini təşkil edir. Latviya Azərbaycanın Avropa İttifaqı məkanında mühüm tərəfdaşlarından biri kimi çıxış edir və xüsusən tranzit daşımalar, liman infra-strukturu və yükdaşıma sahələrində əməkdaşlıq yüksək qiymətləndirilir. Eyni zamanda enerji, kənd təsərrüfatı və informasiya texnologiyaları sahələrində də qarşılıqlı maraqlar mövcuddur. İkitərəfli işgüzar görüşlər və biznes-forumlar bu əlaqələrin genişlənməsinə və yeni investisiya layihələrinin reallaşdırılmasına şərait yaradır.

Məhz bu strateji tərəfdaşlıq və əməkdaşlıq imkanları Şuşada keçirilən Azərbaycan-Latviya iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının 9-cu iclasında müzakirə olunub. Qeyd edək ki, iclas iki ölkə arasında gələcək əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edirdi. İclasın əsas məqsədi yalnız mövcud əlaqələri gücləndirmək deyil, həm də yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi və qarşılıqlı maraq doğuran layihələrin təşviq edilməsi idi. İlk növbədə tərəflər kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanlarını, innovativ texnologiyaların tətbiqini, məhsul istehsalının artırılması və ixrac potensialının genişləndirilməsi istiqamətində perspektivləri müzakirə ediblər.

Yeri gəlmişkən, Şuşadakı iclasdan bir gün əvvəl iqtisadiyyat naziri Mikayıl Cabbarov Latviyanın kənd təsərrüfatı naziri, Azərbaycan-Latviya iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının həmsədri Armands Krauze ilə görüşmüşdür. Söhbət zamanı nazirlər hər iki ölkə arasındakı əlaqələrin bundan sonra da möhkəmləndirilməsini müzakirə etmişlər. Qeyd olunmuşdur ki, 2017-ci ildə imzalanmış Strateji Tərəfdaşlığın Qurulmasına dair Birgə Bəyannamə Azərbaycan və Latviya arasında ikitərəfli münasibətlərin dərinləşdirilməsi üçün möhkəm baza rolunu oynayır. Latviya ilə iqtisadi-ticarət tərəfdaşlığı inkişaf edir və ötən il, eləcə də 2026-cı ilin ilk iki ayı ərzində qarşılıqlı ticarət dövriyyəsinin artması buna nümunədir. Görüşdə Azərbaycanda investorlar üçün yaradılmış əlverişli fürsətlər haqqında məlumat verilmiş, üstəlik, birgə müəssisələrin yaradılması, tranzit daşımalar, turizm və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş perspektivlər olduğu qeyd edilmişdir.



Bunun davamı olan Şuşa görüşündə xüsusən kənd təsərrüfatının prioritet sahəsi olan heyvandarlıqda birgə əməkdaşlıq imkanlarından da söz açılıb. Qeyd edilib ki, yüksəkkeyfiyyətli cins heyvanların, eləcə də süd və ətlik mal-qaranın Baltikyanı ölkələrdən, o cümlədən Latviyadan Azərbaycana gətirilməsi mümkündür. Latviyanın heyvandarlıq, süd istehsalı və meşə təsərrüfatı sahəsindəki təcrübəsi əməkdaşlıq üçün böyük imkanlar yaradır. Regionda fəaliyyət göstərən qabaqcıl hərrac mərkəzində ildə təxminən 30 min baş heyvan satılır və satılan heyvanların böyük hissəsi Türkiyəyə ixrac olunur. Bu səbəbdən Azərbaycana cins heyvanların tədarükündə hər hansı çətinlik gözlənilmir. Nazir Armands Krauze deyib ki, kənd təsərrüfatında digər mühüm istiqamət meşəçilik sahəsidir: "İqlim dəyişikliyinin təsirlərinin azaldılması və meşələrin bərpası bu gün bütün ölkələr üçün prioritetdir. Məlum olduğu kimi, xüsusilə bu regionda işğal dövründə meşə sahələrinin əhəmiyyətli hissəsi məhv edilib və onların bərpasına ciddi ehtiyac var. Bu sahədə "Nordik texnologiyaları"nın tətbiqi imkanları nəzərdən keçirildi. Sözügedən texnologiyalar meşələrin daha sürətli və daha səmərəli şəkildə bərpasına imkan yarada bilər".

Məlumdur ki, Azərbaycanın strateji coğrafi mövqeyi təkcə ikitərəfli əlaqələrdə deyil, üçüncü ölkələrlə ticarəti asanlaşdırmaq üçün də mühüm üstünlüklər təqdim edir. Ölkəmiz Avrasiyada əsas nəqliyyat və logistika mərkəzi kimi çıxış edir və "Şərq-Qərb", eləcə də "Şimal-Cənub" dəhlizlərini birləşdirən müasir infrastrukturla təmin olunub. Orta dəhliz isə Avropanı Mərkəzi Asiya və Çin ilə birləşdirən etibarlı və səmərəli nəqliyyat yoludur. Tədbirdə çıxış edən Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov tərəfdaşları bu dəhlizin təqdim etdiyi imkanları araşdırmağa, eləcə də Latviya investorlarını Azərbaycandakı iqtisadi zonalarda yaradılmış əlverişli şəraitdən yararlanmağa dəvət edib.

İclasın nəticəsi olaraq tərəflər iki ölkə arasında iqtisadi, kənd təsərrüfatı, elmi-texniki və mədəni əməkdaşlığın daha da gücləndirilməsi üçün konkret addımların atılması qərarına gəliblər. Qarşılıqlı investisiya imkanlarının genişləndirilməsi, birgə müəssisələrin yaradılması, ticarət və tranzit layihələrinin inkişafı ilə bağlı planlar gündəmdə yer alıb. Həmçinin heyvandarlıq, meşə təsərrüfatı və digər prioritet sahələrdə texnologiyaların və təcrübənin paylaşılması ilə əlaqədar perspektivlər müəyyənləşdirilib. Tərəflər Azərbaycanın strateji mövqeyi və müasir nəqliyyat dəhlizlərindəki imkanlardan yararlanaraq, regionda əməkdaşlığın daha geniş və davamlı xarakter almasını təmin etmək niyyətində olduqlarını bildiriblər. Tədbir qarşılıqlı səfərlərin və işgüzar əlaqələrin intensivləşdirilməsi üçün vacib platforma rolunu oynayıb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Qan yaddaşı

# Başlıbeldə əsrə bərabər 113 gün

**"Diqqət, diqqət! Nəzərinizə bir elan çatdırırıq... Əzizov Seyfəli qardaşı İsməti və əmisi oğlu Elşadı Xanlar rayonundakı Kəlbəcər qərargahında gözləyir. Onlardan həmin ünvana gəlmələri xahiş olunur", - deyə bir elan səsləndirilmişdi...**

O an rütubətli, qaranlıq Barutlu kahasında zaman sanki donmuşdu. Soyuq divarlarından süzülən su damcıları qayaların üzərində cansıxıcı bir səs çıxarırdı. Köhnə avtobus akkumulyatoruna güclə bağlanmış radionun xırıltılı səsi kahanın buz kimi divarlarında əks-səda verəndə, ümidsizlik içərisində çırpınan yaralı canlar qəfil diksinirdi. Bəlkə də bir çoxuna adi görünən bu elan, 1993-cü ildə Kəlbəcərin Başlıbel kəndində 113 gündür ölümlə pəncələşən, dünyadan əli üzülən bir ovuc insan üçün göydən gələn nicat səsi idi.

Kahaya sığınmış çarəsiz insanlar bir-birlərinə qoşularaq indiyə qədər yaşadıqları faciələrin, məhrumiyyətlərin ağrı-acısından və qəfil gələn qurtuluş xəbərindən hönkür-hönkür ağlamağa başlamışdılar. Radiodan eşitdikləri bu xırıltılı səs onlara deyirdi: "Yol açıqdır, hələ yaşamağa ümid var..."

Amma bu müjdəyə qədər keçən o 113 günün hər saniyəsi qanla, qar-boranla və ağlasığmaz dözümlə yazılmışdı… Həmin 113 günün hər saniyəsi Başlıbeldə mühasirədə qalan hər bir şəxs üçün bir əsrə bərabər keçmişdi…



### "Mən kəndimə ölməyə yox, yaşatmağa gəlmişdim..."

"Hər şey 1993-cü ilin müdhiş martında başlamışdı. Bakıda təhsil alırdım, işləyirdim, amma ürəyim Kəlbəcərdəydi. Vəziyyətin getdikcə pisləşdiyini və Kəlbəcərin də işğalla üz-üzə olduğu qulağımıza çatanda dayana bilmədim. O dar günlərdə camaatımıza nəsə köməyim dəyər deyə martın sonunda Başlıbelə yollandım. Kəndə çatanda mənzərə o qədər ürəkağrıdan idi ki… Camaatın çoxu köçmüşdü, amma hələ də orada qalan qocalar, uşaqlar, xəstələr vardı. Onları taleyin ümidinə buraxmaq olmazdı. Amma necə!? Bircə yol qalırdı ki, kahalara sığınaq".

113 gün Kəlbəcərdə erməni mühasirəsində qalan, 18 aprel 1993-cü ildə Başlıbeldə kahalarda yaşanan qırğında, eləcə də sonra dəfələrlə ölümlə üz-üzə gələn Elşad Əzizov cəmi 23 yaşındaykən yaşadıqlarını 33 il sonra "Azərbaycan" qəzetinin "Qan yaddaşı" rubrikasında iztirablarla dilə gətirir.

1966-cı ildə Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olan Elşad Həsən oğlu Əzizov deyir ki, ömrünün ən gözəl illəri doğulduğu torpaqda keçib. O, orta məktəbi başa vurduqdan sonra ali məktəbə qəbul olub və Bakı şəhərinə gəlib. Gündüzlər oxuyub, gecələr isə kombinatda işləyib. Tələbəlik illəri ermənilərin yenidən Azərbaycana qarşı torpaq iddiaları qaldırdığı zamanlara düşüb. O da 1988-ci ildə başlayan nümayişlərdə tələbə yoldaşları ilə birlikdə fəal iştirak edib.

Münaqişə isə getdikcə qızışır və Ermənistan Azərbaycan torpaqlarına təcavüzə başlayır. Xocalı, Şuşa, Laçın bir-birinin ardınca işğal altına düşür.

1993-cü il mart ayının sonlarında Kəlbəcərə yollanan Elşad burada vəziyyətin gərgin olduğunu və ermənilərin işğal imkanlarının hər dəqiqə artdığını görür. Mart ayının sonuna qədər artıq əhalinin böyük bir qismi (təxminən 85-95 faizi) kəndi tərk edir, buna baxmayaraq, burada qalan, köçə bilməyən bir neçə ailə, yaşlı və səhhətində problemi olan insanlar da olur. Elşad Əzizov öz ailəsini də təhlükəsiz yerə köçürdükdən sonra əmisi oğlu İsmətlə birlikdə vəziyyəti izləmək üçün kənddə qalır. Aprelin 1-də onlar bir neçə silahlı şəxsin kəndə gəldiyini görürlər. Əvvəlcə onların erməni olduğunu düşünsələr də, sonradan azərbaycanlı hərbçilər olduğunu müəyyən edirlər.

Elşad danışır ki, bunlar 9 nəfər hərbçi, 4 nəfər isə bir ailənin üzvləri olan mülki şəxslər idi. Mülki şəxslər Laçın rayonundan gəlmiş ata, iki qızı və 14 yaşlı oğlu olur:

- Laçınlı Əhliman kişi danışdı ki, o Laçından çıxmamış və təsərrüfatla məşğul imiş. Ermənilər onların yerini öyrəndikdən sonra bütün mal-qarasını ələ keçirir, özlərini isə girov götürürlər. Kəlbəcərin Bağlıpəyə kəndinin ərazisində onlar bizim əsgərlərlə qarşılaşırlar və beləliklə, erməni quldurlarından qurtula bilirlər.

Beləliklə, bu insanlar da Başlıbeldə bizimlə birlikdə qaldılar. Gecə radioda məlumat verdilər ki, artıq Kəlbəcər rayonu ermənilər tərəfindən tam işğal olunub. Əlimiz hər yerdən üzüldü. Çox götür-qoy etdikdən sonra kənddə qalan insanları təhlükədən sovuşdurmaq üçün tədbirlərə başladıq. Aralıda kahalar var idi ki, müvəqqəti onlara sığınmaq olardı. Kənddə olan bir ədəd "QAZ-69" markalı maşınla və avtobusla kahalara ərzaq, yatacaq daşıdıq. Səhər açılanda kəndin Qalaça deyilən ərazisindən müşahidə etməyə başladıq. Günorta saat 12-13 radələrində kəndin mərkəzinə bir "QAZ-69" gəldi. Mədəniyyət evinin yanında bir neçə silahlı maşından düşüb avtomatla göyə atəş açmağa başladı. Bundan sonra çıxıb getdilər. Bildik ki, bu, Kəlbəcərin bütün kəndlərinin də işğal edilməsinin xəbərdarlığıdır.

Aprelin 5-də bir neçə maşınla erməni silahlıları kəndə daxil olanda ilk dəhşəti yaşadıq. Gözümüzün qabağında evləri yandırıb, talan edirdilər. Qənaət müəllim vardı, bir az xəstəhal adam idi, kəndi tərk etmək istəmədi. Onu işgəncə ilə öldürüb yolun kənarına atdılar. Biz onun cənazəsini götürə bilmədik... Götürsəydik, düşmən kənddə hələ də kimlərinsə qaldığını bilib bizi tapacaqdı. O ağrı, o çarəsizlik hələ də içimi göynədir.

### Aprelin 18-i - təbiətin və insanın sınağı

Hər şey aprelin 18-də, göy üzünün hələ təmiz, günəşin isə ətrafa şəfəqlərini səxavətlə payladığı gün başladı. Kahadakılar yenə də naümid bir sabaha oyanıb təbiətin mülayim qoynuna sığınmışdılar. Bir azdan yerlə göyün bir-birinə qarışacağından, tərtəmiz səmanın qan rənginə boyanacağından xəbərsiz...

Həmin məşum gün Elşad Əzizovun yaddaşına belə həkk olunub:

- Aprelin 18-i tezdən məskunlaşdığımız Portda kahasından təxminən 1 kilometr aralıdakı maşın yolu ilə kəndə bir ağ "Niva"nın daxil olduğunu gördük. Bu maşın yanımızdan keçib kəndin yuxarı dağ hissəsinə getdi. Məqsədləri otlaqlarda qalan mal-qaranı yığıb aparmaq idi. Çox güman ki, onlar qayıdanda bizim məskunlaşdığımız yeri gördülər. Çünki "Niva" dayandı və içindəkilər düşdülər, bir nəfər kahaları müşahidə eləməyə başladı, ikisi isə kənd hissəsinə tərəf aşdı. 5 dəqiqə sonra kahalara atəş açmağa başladılar. Biz də bunlara cavab atəşi açdıq. Həmin vaxt iki nəfər "Niva"-ya oturdu və kəndə sürdülər. Haradasa 15-20 dəqiqədən sonra hərbi maşınlarla böyük bir qüvvə kahalara yaxınlaşdı. Bizi hər tərəfdən mühasirəyə aldılar və atəşə tutdular. Görünür onlar elə düşünürdülər ki, burada böyük bir hərbi baza var. Elə ilk atəşdə mən qolumdan güllə, bir neçə nəfərimiz qəlpə yarası aldıq. Günorta saat ikidən başlayan döyüş, gecə saatlarına qədər davam etdi. Kahalardakılardan heç kimin, heç kimdən xəbəri yox idi. Bilmirdik ki, kim yaralandı, kim öldü, kim əsir götürüldü...



Buradan salamat çıxmaq üçün yollar axtarmağa başladıq, amma vəziyyət getdikcə pisləşirdi. Onu da deyim ki, həmin gün çox mülayim, günəşli hava var idi. Ancaq axşama doğru vəziyyət dəyişdi, sərt boran, qar başladı. Biz də bundan istifadə edib kahalardan çıxa bildik. Atəş bir balaca səngidikdən sonra insanlarımızın yarısı başqa əraziyə üz tutdu. Mən və əlavə beş nəfər, o cümlədən səkkiz yaşlı qız uşağı əvvəldən nəzərdə tutduğumuz "Nəbinin kahası" deyilən əraziyə yollandıq.

Yenə də deyirəm, Allahın bizə onda yazığı gəldi ki, dəhşətli çovğun qopdu. Bu, bizim oradan sağ çıxmaq üçün yeganə qurtuluşumuz oldu. Əks təqdirdə, bir nəfər belə xilas ola bilməyəcəkdi...

### Bir yandan düşmən qorxusu, bir yandan da Kəlbəcərin sərt təbiəti...

18 apreldə düşmən kahadakılardan 12 nəfəri şəhid etmiş, 14 nəfəri isə girov götürmüşdü. Digər əksəriyyəti yaralı olan insanlar isə Kəlbəcərin dağlarına, düzlərinə perik düşmüşdülər... Bir yandan düşmən qorxusu, bir yandan Kəlbəcərin sərt təbiəti, bir yandan da yatacaq, su, yemək yoxluğu onları taqətdən salmış, əllərini dünyadan üzmüşdü...

Elşad deyir ki, hardasa bir həftədən sonra görürlər ki, Nəbinin kahasına doğru üç nəfər gəlir:

- Baxdıq ki, bunlar da bizimlə kahada olanlardandırlar. 18-i günü onlar el arasında "Sadığın köşkü" deyilən əraziyə üz tutublar. Oradakıların da çox pis vəziyyətdə olduqlarını, hamısının güllə, qəlpə yarası aldıqlarını dedilər. Yenidən bir yerə cəmləşmək qərarına gəldik və bunun üçün ən etibarlı yer Nəbinin kahası idi. Kənddən 7-8 kilometr uzaqda yerləşən bu kaha nisbətən geniş və dərin idi. Müvəqqəti buraya sığınmaq olardı.

Bir yerə cəmləşdikdən sonra məsləhətləşdik ki, şəhidlərimizi dəfn edək. Amma bu böyük risk idi. Çünki ərazinin hər tərəfi düşmənlə doluydu. Buna baxmayaraq, gecələr çox çətinliklə də olsa onları dəfn elədik. Artıq ermənilər kənddə evləri bir-bir talan edirdilər. Çox təhlükəli olsa da, gecələr biz də kəndə enib evlərdən ərzaq, o cümlədən yatacaq toplayıb kahaya gətirirdik.

Bir müddəti bu cür başa vurduq, amma bu formada nə qədər yaşamaq olardı?! Qurtuluş ümidimiz də tükənmişdi. Nəsə başqa çıxış yolu tapmalıydıq. Bir dənə radiomuz var idi. Onu avtobusun akkumulyatoruna qoşub mütəmadi olaraq xəbərlərə qulaq asırdıq. Düşünürdük ki, bəlkə Kəlbəcər yenidən geri qaytarılar, amma... Hər gün yeni-yeni bəd xəbərlər alırdıq. Demək olar ki, biz artıq həyatdan əlimizi tamamilə üzmüşdük...

Onu da deyim ki, Başlıbelə yaxın Çovdar Şahkərəm adlı kəndi də bir neçə nəfər tərk edə bilməmişdi. Onlar da kahalara sığınmışdılar.

Bir gün həmin insanlar bizim yanımıza gəldilər. Söhbət əsnasında dedilər ki, artıq qərar veriblər ki, buranı tərk etsinlər. Nə qədər ki havalar isinib, həm də nə qədər ki, ermənilər bütün ərazilərə nəzarət eləyə bilmirlər, getmək lazımdır. Təklif etdilər ki, kimsə getmək istəsə, onlara qoşula bilər. Dedik ki, biz hələ ki, gedə bilmərik. Çünki dəstəmizdəkilərin əksəriyyəti yaralı idi. Çovdar Şahkərəmdən gələnlər bizim dəstəmizdəki qohumları olan Qədim kişini də götürüb getdilər. Həmin vaxt İsmətlə məktub yazıb Qədim kişiyə verdik ki, inşallah mühasirədən çıxıb gedə bilsələr, onu Göygöl rayonunda yaşayan İsmətin qardaşı Seyfəliyə versinlər.

Aradan 7-8 gün keçmişdi və biz artıq Barutlu kahasına yığışmışdıq. Günorta radələri idi. Oturub müzakirə edirdik ki, mühasirədən necə çıxa bilərik. Çünki yaralıların vəziyyətini nəzərə almaq lazım idi, ərzağımız tükənirdi. Birdən Yəhya sevinclə qaça-qaça gəlib dedi ki, İsmət, Elşad, radioda sizin adınızı çəkdilər. Bu bizə təəccüblü gəldi. Sonradan gün ərzində bəlkə də 7-8 dəfə radioda xəbərlərdən sonra belə bir elan səsləndirildi:

"Diqqət, diqqət! Nəzərinizə bir elan çatdırırıq... Əzizov Seyfəli qardaşı İsməti və əmisi oğlu Elşadı Xanlar rayonundakı Kəlbəcər qərargahında gözləyir. Onlardan həmin ünvana gəlmələri xahiş olunur".

O gün kahada yaşadığımız sevinci indi sözlərlə ifadə edə bilmirəm. Hamı sevinc içərisində qucaqlaşıb ağlaşırdı... Bu, o demək idi ki, yol açıqdır, getmək mümkündür.

### Qurtuluş

İyul ayının 17-də səhər tezdən kahadakılar kəndi tərk edəndə son dəfə doğma Başlıbelə baxanda gördükləri mənzərə gözlərinin önündə düşmənin od vurub yandırdıqları evləri olur.

- Biz böyük əzab-əziyyətlə bir neçə günə gəlib çıxdıq Tərtər çayının sahilinə. Ancaq çayı keçmək çox çətin idi. Özümüzlə götürdüyümüz ipin köməyi ilə birtəhər yaşlıları, uşaqları, xəstələri kürəyimizdə bir-bir çaydan keçirdik. Gecə ilə Kəlbəcərin Göydərə ərazisinə, oradan da Cəmilli kəndinə gəldik. Günorta həmin kənddə yenidən mühasirəyə düşdük. Ermənilər bizi görüb atəş açdılar. Qocaları, xəstələri, uşaqları ardıc ağaclarının altında birtəhər gizlətdik. Gecə qaranlıq düşənə qədər orada gözlədik. Sonra Daşkəsən rayonu ərazisinə doğru hərəkət etməyə başladıq.

Səhər tezdən dan yeri təzə ağaranda gəlib Daşkəsənin Zivlən kəndinə çıxdıq. Dağda qoyun otaran çobanları gördük. Əvvəlcə bizi düşmən sandılar, sonra Kəlbəcərdə mühasirədə qaldığımızı bildilər. Kənddə bizi çox yaxşı qarşıladılar. Bütün kənd əhalisi axışıb gəldi yanımıza. Heyvan kəsən kim, yemək bişirib gətirən kim... Sağ olsunlar, bizə bir "QAZ-53" maşını təşkil etdilər və Daşkəsən rayonuna gətirdilər.

Bax, budur bədxah qonşularımızın başımıza açdıqları oyun. Bu gün şükür edirəm ki, onların bütün arzuları ürəklərində qaldı, xəstə "Miatsum" xəyalları puç oldu. 2020-ci ildə şücaətli ordumuzun, dövlətimizin uzaqgörən siyasətinin nəticəsində torpaqlarımız murdar düşmənin tapdağından azad oldu.

Altıncı ildir ki, Kəlbəcərimiz öz əvvəlki ab-havasına qayıdıb. Dəfələrlə doğma kəndim Başlıbelə getmişəm, şəhidlərimizin məzarlarını ziyarət etmişəm. Arzumdur ki, bundan sonra xalqımız bir daha müharibə görməsin.

Bu gün Elşad Əzizov yenidən Başlıbeldədir. Amma bu dəfə mühasirədə qalan biri və ya məcburi köçkün kimi deyil, qalib xalqın oğlu kimi. Vaxtilə sığındıqları kahaların soyuğu indi xatirələrin istisinə bürünüb. Aprel ayında Başlıbel şəhidlərinin məzarı üzərindən boylanan hər bir çiçək, o 113 günlük zülmətin içindən süzülüb gələn zərif fəryadı, vətən övladlarının torpağa qarışan pak qanının rəngini daşıyan vüqarlı yaddaşı əks etdirir.

İndi Başlıbeldə göz yaşları artıq kədərdən deyil, zəfərin verdiyi sonsuz qürurdan axır.

*Yasəmən QƏNAƏTQIZI,*
*"Azərbaycan"*

## Vətən oldu oğullar

# Topçu İsgəndər

- İsgəndər bəy, sizi bura nə çəkib gətirib?

- Mənə qalsa, bu hamımızın borcudur. Əgər bu gün bura gəlməsəydik, inanın, bunu vicdanım qaldırmazdı. Bizə ata-babadan qalan torpaqlara olmaz ki, kafir ayaq bassın. Basmayacaq da!



Birinci Qarabağ müharibəsinin ən ağır günlərində, cəbhə bölgəsinə gələn jurnalistin sualına belə bir qətiyyətli cavab vermişdi o. Üzündə heç vaxt əskik olmayan mülayim təbəssümü, başında qürurla daşıdığı göy bereti ilə ilk baxışda sakit, həlim bir insana bənzəyirdi. Amma bu zahiri sakitliyin arxasında bir pəhləvan ürəyi, topların dilini bilən bir artilleriya dahisi gizlənirdi.

Bu sadə cavabları ilə o, həm də bir tale bəyanatı verirdi. Bir Axıska türkü olaraq dediyi bu sözlərlə sübut edirdi ki, vətən təkcə doğulduğun yer deyil, vicdanınla qoruduğun torpaqdır. O, uzaq yollardan gəlib Azərbaycanı özünə doğma ocaq, sarsılmaz qala seçmişdi.

Birinci Qarabağ müharibəsində göstərdiyi ağlasığmaz şücaətlərlə hələ sağlığındaykən əfsanəyə çevrilən, adı "İsgəndər qalası" kimi zirvələrə həkk olunan Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurov.

### Sürgün taleyi

İsgəndər Aznaurov 16 avqust 1956-cı ildə Özbəkistanın Buxara vilayəti Qala-Asiya kənd sovetliyinin 22 saylı sovxozunda dünyaya gəlib. 1963-cü ildə Daşkənd vilayətinin Akkurqan rayonunda yerləşən Lomonosov adına 1 saylı orta məktəbin birinci sinfinə gedib, 1973-cü ildə həmin məktəbin onuncu sinfini bitirib. Elə həmin ildə də əmək fəaliyyətinə başlayıb. 1975-ci ildə Akkurqan rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ukraynanın Çerkassk şəhərində xidmət edən İsgəndər 1977-ci ildə ordudan tərxis olunub. O, nümunəvi hərbi xidmətə görə dəfələrlə komandanlığın təşəkkürlərinə və fəxri fərmana layiq görülüb. 1978-ci ildə Daşkənd İrriqasiya İnstitutuna daxil olub, 1983-cü ildə ali təhsilini başa vurub təyinatla Daşkənd vilayəti Axanqaran rayonu Qalyakudur sovxozuna göndərilib.

İsgəndər Aznaurov bir müddətdən sonra - 1990-cı ildə ailəsi ilə birlikdə Azərbaycana köçüb.

Bəli, Buxara vilayətində doğulan, Axıska türkü olaraq sürgün yollarının kədərini genində daşıyan İsgəndər Aznaurov Azərbaycana pənah gətirmişdi, amma bura onun üçün uğrunda göz qırpmadan can verəcəyi əsl Vətənə çevrildi.

Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun ata-babalarının 1944-cü ildə Orta Asiyaya sürgün edilməsi ilə başlayan bu kədərli taleyi, 1980-ci illərin sonunda Fərqanə hadisələri ilə yeni bir məcraya qədəm qoydu. Aznaurovlar ailəsi digər Axıska türkləri kimi Azərbaycana üz tutdu və Şəmkir rayonunun Kür qəsəbəsində məskunlaşdı. Elə həmin gündən də bu el-obaya bağlandı, Şəmkir camaatının dərindən hörmət etdiyi doğmaya çevrildi. Amma hələ İsgəndər Aznaurov Birinci Qarabağ müharibəsində ölkəmiz uğrunda göstərəcəyi misilsiz qəhrəmanlıqlarla tarix yazacaq, xalqımızın qəlbində uca taxt quracaq, əsl Azərbaycan oğlu olacaqdı…

### Buxaradan Gədəbəyə

Erməni işğalçılarının torpaqlarımıza hücumu, törətdikləri Xocalı faciəsi İsgəndər Aznaurovun qəlbini qəzəb və intiqam alovuna bürüyür. 1992-ci ilin aprelində o, könüllü şəkildə ordu sıralarına yazılır. Onu 861 saylı hərbi hissənin artilleriya üzrə komandir müavini təyin edirlər. Baş leytenant İsgəndər Aznaurov Gədəbəy rayonunun Şınıx bölgəsində peşəkar hərbçi kimi düşmənin mühüm hərbi bazalarının məhv edilməsində şəxsi nümunə göstərir.

Döyüş yoldaşları xatirələrində dilə gətirirlər ki, İsgəndər döyüşlərə təkcə ruhu ilə deyil, həm də dərin hərbi biliyi ilə girərmiş. Onun cibindən artilleriya ilə bağlı kitab, çantasından isə topları təmir etmək üçün lazım olan alətlər heç vaxt əskik olmazdı. İsgəndər həm də nasaz texnikanı döyüş meydanında dirildən, topların dilini bilən bir usta idi. Hətta döyüşün ən qızğın vaxtında belə, əlindəki o alətlərlə sıradan çıxmış topları yenidən sıraya qaytarar, düşmən üzərinə od ələyərdi. O, həm də peşəkar gənc topçular yetişdirmişdi. Qəhrəman döyüşçü çox zaman boynunda gəzdirdiyi fotoaparatı ilə imkan tapdıqca döyüş yoldaşlarının şəkillərini çəkərək onları əbədiləşdirərdi. Silahdaşları onu suyuşirin, mehriban bir dost, əsgərləri sadə və qayğıkeş bir insan kimi xatırlayırlar. Amma topunun başına keçəndə o mülayim insan gedir, yerinə düşmənin yuxusuna haram qatan bir əfsanə gəlirdi. Gədəbəyin Başkəndindən Şınıxına qədər hər qarışda göstərdiyi şücaətlərlə sağlığında əfsanəyə çevrilmişdi. Düşmən atəş açmağa cürət edəndə, İsgəndərin cavabı elə sarsıdıcı olurdu ki, qarşı tərəfdə, sadəcə, darmadağın olmuş texnika və canlı qüvvə qalırdı.

Ehtiyatda olan mayor Dilqəm Əliyevin danışdıqlarından məlum olur ki, 7 avqust 1992-ci ildə Mutu dərə uğrunda döyüşdə düşmənin 13 döyüş texnikasına qarşı cəmi 3 texnika, 400-500-ə yaxın erməniyə qarşı 30-35 nəfərlə döyüşüblər. Buna baxmayaraq, qeyri-bərabər döyüşdə qalib gəliblər. Bu qələbənin qazanılmasında həmin zaman çayın sol sahilində öz qrad qurğusu üçün mövqe düzəltmiş İsgəndər Aznaurovun xidmətləri yüksək olub.

İsgəndər Aznaurov ağır döyüşlərin birində düşmənin dörd topunu sıradan çıxararaq onlarca erməni yaraqlısını məhv edib. Onun rəhbərliyi altında keçirilən əməliyyat zamanı sərrast top atəşləri ilə düşmən mövqelərinə ciddi zərbələr vurulur, silah-sursat anbarları dağıdılırdı. Nazdıxanyal uğrunda gedən döyüşlərdə İsgəndər Aznaurov əsl igidlik nümunəsi göstərib. O, döyüş yoldaşlarının köməyilə azğınlaşmış düşmənin qarşısını kəsib güclü müqavimət göstərib. Erməni faşistləri öz məğlubiyyətlərini hiss edib, geri çəkilməyə məcbur olublar.

Qısa müddətdə əfsanəviləşərək "topçu İsgəndər" kimi tanınan Aznaurov Gədəbəy rayonunda Başkəndin erməni quldurlarından azad olunmasında, Mutu dərədə, Şınıxda, Ər dağı və Ləzgi daşında, eləcə də rayonun digər strateji əhəmiyyətli ərazilərində xeyli düşmən texnikasını və canlı qüvvəsini məhv edərək böyük qəhrəmanlıqlar göstərib. Hətta ermənilər bu şücaətlərinə görə onun başına yüksək məbləğdə vəsait də vəd ediblər.

Ancaq düşmən bir şeyi anlamırdı ki, İsgəndəri dayandırmaq üçün gərək onun qəlbindəki o böyük Vətən eşqini söndürə biləydilər, bu isə qeyri-mümkün idi.

### Əbədiyyət məqamı

18 aprel 1993-cü il…

Gədəbəyin dumanlı zirvələri o gün hər zamankından daha tutqun görünürdü. Çovğunlu hava barıt qoxusu və ölümün soyuq nəfəsi ilə daha da ağırlaşmışdı. Səngərdə dayanan İsgəndərin gözləri yol çəkirdi. Bədəni burada idi, amma ruhu bir anlıq babalarının Axıskadan qatar vaqonlarında naməlumluğa sürgün edildiyi 1944-cü ilin o müdhiş günlərinə qayıtmışdı. Ürəyində dözülməz bir ağrı hiss etmişdi. O, bir daha vətənsiz qalmaq istəmirdi…

Qəfil düşmən texnikasının tırtıl səsləri göy üzünün bağrını yarmışdı. O an sanki zaman donmuşdu... İsgəndərin baxışlarındakı qəfil qətiyyət, bütün ağrıacılarını silib atmışdı. O, minalanmış sahənin ortasından, ölümün gözünün içinə baxa-baxa qaçaraq öz topunun başına keçmişdi. Və qarşısındakı ölüm saçan düşmən texnikasını dəqiqliklə nişan almışdı. İlk mərmi havada nərildəyib zirehli maşını alov topuna çevirəndə, İsgəndər artıq bu dünyadan uzaqlaşmışdı. O, indi qeyri-bərabər bir döyüşün tam mərkəzində, hər saniyəsi qəhrəmanlıqla yoğrulan bir dastanın müəllifi idi. Mərmilər ətrafında torpağı şumlasa da, o, kipriyini belə qırpmadı. Hər atəşi sərrast, hər vuruşu amansız idi. Ölüm onun lap yaxınlığında fırlansa da, o, qorxuya yer vermədi. Çünki o an İsgəndər artıq bir insan deyil, vətənin özünə çevrilmişdi. Azərbaycan adlı yurdun qoynunda əbədiyyətə qovuşmuş, şəhidlik zirvəsinə ucalmışdı.

İsgəndər Aznaurov Bakıda Şəhidlər xiyabanında dəfn edilib. Birinci Qarabağ müharibəsində cəbhənin ən qaynar nöqtələrində vuruşarkən qəhrəmanlıqla şəhid olan İsgəndər Aznaurovun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Ulu Öndər Heydər Əliyevin 15 yanvar 1995-ci il tarixli qərarı ilə Aznaurov İsgəndər Söhrab oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. "Qızıl ulduz" medalı ilə təltif olunub. Bu gün qəhrəman döyüşçünün xatirəsi hər yerdə yaşayır. Onun adına Şınıx bölgəsində "İsgəndər qalası" var. Şəmkir rayonunda Ceyrançöldə salınmış qəsəbə və Kür qəsəbəsindəki 1 saylı məktəb qəhrəmanın adını daşıyır. Məktəbin girişində büstü qoyulub, 2 saylı orta məktəbdə isə onun şərəfinə "Xatirə guşəsi" yaradılıb. İsgəndərin istifadə etdiyi KS19 topu isə hələ də nümunə olaraq saxlanılır.

Milli Qəhrəmanımızın üç qız övladı yadigar qalıb.

### "Qurban olum buranın torpağına, daşına..."

Qızı Zuina Aznaurova qəhrəman döyüşçü haqqında çəkilən "İsgəndərin sorağında" adlı filmdə atalı günlərini göz yaşları içərisində xatırlayarkən Aznaurovun böyük ürəyinin daha bir gizli qatını açır. Müharibənin sərt üzünü heç vaxt ailəsinə göstərməzdi İsgəndər. Evə gələndə cəbhədən yox, gözəl günlərdən danışardı: "Hər şey yaxşı olacaq" deyərdi.

Amma hər gəlişində bir adəti vardı. Öz evinin qapısını döyməmişdən əvvəl qəsəbənin uşaqlarını başına toplayardı. Cibindən onlara kiçik hədiyyələr, saqqızlar çıxarıb paylayardı. O, uşaq sevgisi ilə dolu idi. Çünki bu böyük insan öz uşaqlarını xocalılı uşaqlardan heç vaxt ayırmırdı. Elə hey tələsirdi... Evə gələndə də səngərə can atırdı… Ailəsi, uşaqları ondan heç doymadı… İsgəndərin də ürəyi daim nigarançılıq içində oldu… Amma vətən ondan razı qaldı.

İsgəndər Aznaurov Azərbaycanı sadəcə vətən saymadı, o, bu torpağa ürəkdən bağlandı. "Azərbaycandan gözəl yer yoxdur. Qurban olum buranın torpağına, daşına" deyərdi. O, bir Axıska türkü olaraq gəldiyi bu yerləri qəhrəmanlıqla qorudu. Qədim türk yurdunun düşmən tapdağına çevrilməsinə canı bahasına razı olmadı.

Bu il Milli Qəhrəman İsgəndər Aznaurovun 70 yaşı tamam olur. O, bəlkə cismən aramızda deyil, amma onun əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayır, ehtiramla anılır. Uca qəhrəmanın adını daşıyan qəsəbədən, məktəbdən keçən, Gədəbəyin uca "İsgəndər qalası"na baxan hər kəs bilir ki, bu torpağın azadlığı İsgəndər kimi mərd insanların polad iradəsi üzərində qurulub. Bu gün onun nəvəsi balaca İsgəndər babasının adını qürurla daşıyır.

İsgəndər Aznaurovun ömür yolu bizə bir həqiqəti miras qoydu. Vətən təkcə doğulduğun yer deyil, son nəfəsinə qədər qoruduğun və qanını torpağına qarışdırdığın yerdir. O, üç körpə qızı və bütöv vətən üçün canını fəda edərək əbədiyyət dastanını yazdı.

Ruhun şad olsun, göy beretli qəhrəman!

Topçu İsgəndər, sənin "ata-babadan qalan torpaqlarına" artıq heç bir kafir ayağı dəyə bilməz!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Göygöldə rayon Ağsaqqallar Şurasının yığıncağı keçirilib

**Heydər Əliyev Mərkəzində təşkil olunan yığıncaqda Respublika Ağsaqqallar Şurasının sədr müavini Bayram Yusifov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, eləcə də rayon ziyalıları, ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.**



İştirakçılar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad etmişlər. Sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin və şərəfli həyat yolunu əks etdirən fotosərgiyə baxış keçirilmişdir.

V.Novruzov yığıncaqda çıxış edərək ağsaqqalların cəmiyyətdəki rolundan danışmış, onların milli-mənəvi dəyərlərin qorunmasında, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, ictimai həyatda əvəzsiz xidmətlər göstərdiklərini vurğulamış, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən dövlətçilik ənənələrinin və Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasətdə mühüm rol oynadıqlarını diqqətə çatdırmışdır.

B.Yusifov çıxış edərək ölkəmizdə ağsaqqallar institutunun inkişafından söhbət açaraq bildirmişdir ki, ağsaqqallar dövlətimiz tərəfindən daim diqqət və qayğı ilə əhatə olunmuşlar. Natiq, həmçinin ağsaqqalların gənclərə örnək olduğunu, milli birlik və sabitliyin qorunmasında mühüm rol oynadıqlarını qeyd etmişdir.

Yığıncaqda təşkilati məsələlərə baxılmışdır. Rayon Ağsaqqallar Şurasının sədri seçilmiş, yeni tərkibi formalaşdırılmış və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində müzakirələr aparılmışdır.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Yaz aratı yüksək məhsuldarlığa zəmindir

**Əvvəllər - sovetlər birliyi zamanında xüsusilə pambıq əkiləcək sahələrdə qış aratı aparılırdı. Bu da əsasən ziyanvericilərin məhvinə, torpağın zərərli maddələrdən, o cümlədən duzlardan təmizlənməsinə, habelə sahələrdə kifayət qədər nəmliyin yaranmasına şərait yaradırdı.**



Təəssüf ki, son bir neçə onillikdir ki, bu proses həyata keçirilmir. Mütəxəssislər bunu təbiətdə baş verən iqlim dəyişmələri ilə əlaqələndirirlər. Əvəzində yaz aratı Muğan zonasında öz qüvvəsində qalır. Salyan, Neftçala, Sabirabad, Saatlı fermerləri çiyid səpinində ondan geniş istifadə edirlər. Fermerlərin dediklərindən məlum olur ki, yaz aratı aparılarkən şumda olan ziyanvericilər məhv olur, torpaqda lazımi qədər münbitlik yaranır, alaq otları tez çıxır. Həmçinin səpinə hazırlıq zamanı çəkilən mala onları kökündən qopararaq məhv edir, nəhayət, toxum münbit torpağa düşür ki, bu da vaxtında və keyfiyyətli çıxış alınmasına səbəb olur.

Qeyd edək ki, bu il Salyan rayonunda 4 şirkətlə bağlanan müqavilələr üzrə 987 fermer 7 min 743 hektarda pambıq əkib-becərəcək. Sahibkarlar hələ yanvar ayında şum, habelə sahələri suvarmaq üçün kanallar çəkdirmiş, digər hazırlıq işləri görmüşlər. İndiyədək 4 min 717 hektarda yaz aratı aparılıb. Rayonun Şorsulu kəndində yaşayan təcrübəli fermer Ələsgər Eyvazov deyir ki, yaz aratı işinin aparılmasında müəyyən qədər gerilik var. Bu da əsasən yağışların çox yağması ilə əlaqədardır. "Həmin səbəbdən səpin də ləngiyir. Aqrotexniki qaydalara görə pambıq əkini apararkən torpaqda istilik 17 dərəcədən az olmamalıdır. Hələlik isə bu temperatur yoxdur. İstiliyin aşağı olması üzündən torpaq da arata zəif düşür. Eşitdiyimə görə, bəzi ərazilərdə mülkiyyətçilər yağışdan sonra torpağı malalayıb, çiyid səpiblər. Amma bu, bir az riskli işdir". Fermer sözlərinə bunları da əlavə etdi: "Bir də gördün havalar birdən-birə qızdı. Onda hamı gecə-gündüz tarlada olacaq. Pambıq əkənlər isə çoxdur. Əziyyəti olsa da, başqa bitkilərlə müqayisədə pambığın gəliri yaxşıdır. Üstəlik, pambıq həm də iş yeri deməkdir".

Neftçala rayonu üzrə isə 1105 fermer pambıq əkməyi qərarlaşdırıb. Onlar pambıq istehsalı ilə məşğul olan 3 şirkətin rayonda fəaliyyət göstərən filialları ilə müqavilə bağlayıblar. Səpin aparılacaq 6 min 305 hektarın 5 min 800-də yaz aratı aparılıb. Qalan sahələrdə işlər davam edir. Əvvəlki illərdən fərqli olaraq, yaz aratı aparılarkən əkinçilər su qıtlığından əziyyət çəkməyiblər. Yağan intensiv yağışlar nəticəsində hazırda Kür çayında suyun səviyyəsi kifayət qədərdir. Fermerlər ümidlidirlər ki, pambıq əkinlərinin, eləcə də yonca və digər bitkilərin suvarılması zamanı problem olmayacaq.

Neftçalada da fermerlər havaların istiləşməsini, torpaqda əkinçilik üçün lazım olan temperaturun yaranmasını səbirsizliklə gözləyirlər. Arzu edirlər ki, günəşli günlər və su bol olsun, daha çox məhsul yetişdirsinlər, yüksək gəlir əldə edib ailələrini firavan dolandırsınlar, elin-obanın xeyirində-şərində alnıaçıq, üzüağ iştirak etsinlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Qubada keçirilən tədbirdə rayonun tarix və mədəniyyət abidələrindən söz açılıb

**Qubada "Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar rayon Heydər Əliyev Mərkəzinin təşəbbüsü ilə "Quba rayonunun tarix və mədəniyyət abidələri: milli irsin öyrənilməsi və təbliği" mövzusunda tədbir keçirilib.**



Quba Rayon İcra Hakimiyyəti, Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının birgə təşkilatçılığı ilə keçirilən tədbir Heydər Əliyev Mərkəzinin əməkdaşları tərəfindən "Şəhərsalma və Memarlıq İli" çərçivəsində hazırlanmış sərgi ilə tanış olmuşlar. Sərgi iştirakçılar tərəfindən böyük maraqla qarşılanmış və Quba şəhərinin müasir memarlıq inkişafını əks etdirən nümunələr kimi yüksək qiymətləndirilmişdir.

Mərkəzin direktoru Sevinc Səlimova, rayon icra hakimiyyətinin əməkdaşı Anar Məmmədov, ADPU-nun Quba filialının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru, humanitar elmlər kafedrasının müdiri Təhminə Əliyeva, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Şabran Regional İdarəsinin aparıcı məsləhətçisi Anar İbrahimovun çıxışlarında Qubanın zəngin tarixi, qədim memarlıq abidələri, milli-mədəni irsin qorunmasının vacibliyi və bu istiqamətdə görülən işlər barədə ətraflı məlumat verilərək qeyd olunmuşdur ki, belə tədbirlər gənc nəslin milli dəyərlərə bağlılığının gücləndirilməsində mühüm rol oynayır.

Tədbirin sonunda Qubanın memarlıq abidələrinə həsr olunmuş videoçarx təqdim edilmişdir.

***A.ƏLİYEV,***
***"Azərbaycan"***

## 161 hektarda kartof, 295 hektarda tərəvəz, 462 hektarda şəkər çuğunduru

### Samux fermerlərinin cari mövsüm əkdikləri məhsulların az bir hissəsidir

**Keçən il Samux rayonunda kənd təsərrüfatı məhsullarının istehsalında uğurlu göstəricilərə nail olunmuşdur. Rayon fermerləri 160 milyon 672,9 min manatlıq məhsul istehsal etmişlər ki, bunun da 82 milyon 419,2 min manatlığını bitkiçilik, 78 milyon 253,7 min manatlığını heyvandarlıq məhsulları təşkil etmişdir.**



2025-ci ilin məhsulu üçün 11869,5 hektar payızlıq bitkilərin səpini aparılmışdır. Bu isə əvvəlki ilə nisbətən 177,7 hektar və ya 1,5 faiz çox idi. Yazlıq səpinin 598,5 hektarı yem bitkiləri, 27 hektarı yazlıq buğda, 113,8 hektarı arpa, 613,5 hektarı tərəvəz, 2289,5 hektarı günəbaxan, 128 hektarı kartof, 369,5 hektarı çuğundur, 958,7 hektarı qarğıdalı, 24 hektarı tərəvəz, 92,5 hektarı bostan bitkiləri olmuşdur. Rayon fermerlərinin çəkdikləri əziyyət öz bəhrəsini vermişdir. Təsərrüfatlarda 46672 ton taxıl, o cümlədən 25828,9 ton buğda, 20843,1 ton arpa, 1495,4 ton kartof, 15029,1 ton tərəvəz, 19690,9 ton qarğıdalı, 4673,5 ton günəbaxan, 1712,9 ton bostan bitkiləri, 20115 ton çuğundur istehsal olunmuşdur. İstehsal olunan tərəvəzin 3513,9 tonu istixanalarda yetişdirilmişdir.

Bu nəticələr samuxluları razı salmışdır. Bu səbəbdən fermerlər cari il daha çox sahədə - 161,4 hektarda kartof, 295 hektarda tərəvəz, 35,5 hektarda yazlıq buğda, 384,3 hektarda günəbaxan, 25,5 hektarda qarğıdalı, 460,9 hektarda şəkər çuğunduru əkmişlər. Seyidlər kəndində 38, Füzuli kəndində 87,5, Yenikənd kəndində 20,7 hektarda yazlıq səpin aparılmışdır. Hazırda fermerlər əkilmiş bitkilərin becərilməsi ilə məşğuldurlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Payızda bol məhsul götürmək üçün...

### Şabran əkinçiləri yaz-tarla işlərinə məsuliyyətlə yanaşırlar

**Dövlətin aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı apardığı siyasət, həyata keçirdiyi islahatlar Şabran rayonunda da öz nəticələrini göstərir.Yaradılmış mükəmməl hüquqi baza, büdcə vəsaiti hesabına verilən subsidiyalar, vergidən azadolmalar və digər güzəştlər aqrar sektorun dinamik inkişafına etibarlı təminat verir.**

Şabran rayonunun kənd təsərrüfatı təyinatlı torpaqları 73666 hektardır. Bunun 22020 hektarı əkin təyinatlı torpaqlardır. Onun da 5000 hektarı dəmyə, 17020 hektarı suvarılandır.

Məlumat üçün bildirək ki, 2025-2026-cı təsərrüfat ilində rayon üzrə 16999,7 hektar şum qaldırılmış, 16787,7 hektarda payızlıq taxıl əkini aparılmışdır. Onun 8592,3 hektarında buğda, 8195,4 hektarında arpa əkilmişdir ki, bu da ötən illə müqayisədə 2042 hektar çoxdur. Əkilmiş taxıl sahələrinin 675 hektarı suvarılmışdır. Yeri gəlmişkən qeyd edək ki, hər həftənin çərşənbə axşamı-cümə günləri bitkiçilik sektorunun əməkdaşları tərəfindən payızlıq taxıl əkinlərinin vəziyyəti ilə bağlı məlumat Kənd Təsərrüfatı Nazirliyinə və nazirliyin müvafiq qurumlarına göndərilir.

Fevral ayında payızlıq əkinlər üzrə subsidiyaların verilməsinə başlanmışdır. Rayon üzrə subsidiyaların verilməsində yaranan problemlər az sayda olsa da, onlar qeydə alınmış və aradan qaldırılmışdır. İndiyə qədər şabranlı fermerlərə 11092 bəyan sahəsi üzrə 2 milyon 535 min 228 manat ödəniş olmuşdur. Ödəniş prosesi növbəli şəkildə həyata keçirilməkdə davam edir.



*Foto İlham BABAYEVİNDİR*

2025-2026-cı təsərrüfat ili üzrə fevralın 1-dən etibarən yazlıq əkinlərin bəyanına da start verilmişdir. Cari dövrdə yazlıq taxıl üzrə 104,7, tərəvəz üzrə 36,4 hektar olmaqla cəmi 141,14 hektar yazlıq bəyanlar verilmişdir.

Məlumdur ki, 2026-cı ilin birinci rübündə havalar normadan artıq yağıntılı keçdi. Bununla əlaqədar əkin sahələrinə dəymiş zərəri müəyyənləşdirmək məqsədilə ərazilərə baxış keçirilmiş və müvafiq tədbirlər görülmüşdür. Fermerlərə bir daha aqrar sığortanın vacibliyi izah edilmişdir. Ümumilikdə suvarma ilə bağlı problem qeydə alınmamışdır.

Şabran DAİM-in əməkdaşları Kənd Təsərrüfatı Nazirliyinin yerli qurumları ilə birgə kəndlərdə fermerlər arasında mütəmadi maarifləndirmə işləri aparır, aqrotexniki xidmətlərin vaxtında və düzgün görülməsinin vacibliyi onlara izah olunur, problemlər dinlənilir, tədbirlər görülür. Fermerlərin qarşısında duran vəzifələrin yerinə yetirilməsi istiqamətində onlara həmçinin tövsiyələr verilir.

Rayon ərazisində 2 soyuducu anbar fəaliyyət göstərir ki, bu da fermerlərin bağlardan topladıqları məhsulun uzun müddət saxlanılmasını təmin edir. Şabran rayonu ərazisində 6 istixana da fəaliyyət göstərir. Həmin istixanalarda pomidor, xiyar və başqa məhsullar yetişdirilir. Rayon ərazisində 4 emal müəssisəsi və 2 dəyirman da var.

2026-cı il yanvar ayının 1-dən mart ayının 31-nə qədər olan müddətdə Şabran ərazisində karantin və xüsusi təhlükəli zərərli orqanizmlərin yayılma arealını müəyyənləşdirmək məqsədilə 2402,89 hektarda yoxlamalar aparılmış, 562,08 hektarda siçanabənzər gəmiricilərlə sirayətlənmə müşahidə olunmuşdur. 450,93 hektarda sirayətlənmə iqtisadi ziyanlı həddən yuxarı olduğu üçün həmin sahələrdə büdcə vəsaiti hesabına kimyəvi mübarizə tədbirləri aparılmışdır. Eyni zamanda Hacıqaraqaşlı kəndi ərazisində çəyitkəkimilərin üsküklərinin yaz müşahidəsi üçün 216 hektar sahədə yoxlamalar aparılmış, 48 hektarda çəyirtkələrin üskükləri ilə sirayətlənmə müşahidə olunmuşdur.

Meyvə bağlarınınn 262,57 hektarında mexaniki, 577,65 hektarında kimyəvi qış mübarizəsi tədbirləri aparılmışdır.145 hektar üzüm bağında mexaniki, 201 hektarında kimyəvi qış mübarizəsi tədbirləri həyata keçirilmişdir. Bundan əlavə, cari ilin üç ayı ərzində QMB-nin mövcudluğuna nəzarət etmək məqsədilə rayonun müxtəlif ərazilərində mütəmadi olaraq monitorinqlər keçirilmiş, vətəndaşlar bu barədə ətraflı məlumatlandırılmışlar.

"Aqroservis " ASC-nin də işlərə dəstəyi böyükdür. Belə ki, həmin qurumun Xaçmaz Regional Nümayəndəliyinin Şabran bölməsi tərəfindən kənd təsərrüfatı məhsul istehsalçılarına 4 adda mineral gübrə satılmışdır.

Bir sözlə, şabranlılar yaza aid bütün işləri vaxtında və məsuliyyətlə görməyə çalışırlar ki, payızda bol məhsul götürsünlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Lənkəranda "Sağlam və dayanıqlı şəhər naminə" daha 600 ağac əkildi

**Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Sağlam və dayanıqlı şəhər naminə" adlı növbəti ağacəkmə aksiyası keçirilib.**

Aksiyada rayonun idarə və müəssisələrinin, xidmət sahələrinin, ictimaiyyətin nümayəndələri, "Regional İnkişaf" İctimai Birliyinin (RİİB), Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin, Regional "ASAN xidmət" mərkəzinin və Gənclər Evi Sosial Xidmət Müəssisəsinin könüllüləri iştirak ediblər.

Ətraf mühitin qorunması və təbii resursların səmərəli istifadəsini təşviq etmək məqsədilə təşkil olunan aksiyada 600 həmişəyaşıl "Eldar şamı" ağacı əkilib, ağaclar suvarılıb və dayaqlarla bərkidilib.



Bu cür aksiyalar insanların ekoloji problemlər barədə məlumatlığını artırmaqla yanaşı, onları təbiətə qarşı daha məsuliyyətli davranmağa təşviq edir, eyni zamanda cəmiyyətin ekoloji şüurunun formalaşmasında mühüm rol oynayır və daha sağlam, "yaşıl gələcəy"in qurulmasına xidmət edir.

***S.QUBADOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan Dəmir Yolları QSC

# Tenderə dəvət

| | |
|---|---|
| **Tarix:** | 17 aprel 2026 |
| **Layihə №** | 59329-001 |
| **Layihə başlığı:** | Azərbaycan dəmir yollarının enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması (Biləcəri-Yalama) layihəsi |
| **Müqavilə № və başlıq:** | ARESTP-BY-CW-01 – Biləcəri-Yalama dəmir yolu hissəsinin enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması üçün layihələndirmə və tikinti-quraşdıma işləri |
| **Təkliflərin təqdim olunması üçün son tarix:** | 29 may 2026 (Bakı vaxtı ilə saat 15:00) |

1. **Azərbaycan hökuməti "Azərbaycan dəmir yollarının enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması (Biləcəri-Yalama) layihəsi"** ilə bağlı maliyyə vəsaiti üçün Asiya İnkişaf Bankına (AİB) müraciət etmişdir və bu maliyyə vəsaitinin bir hissəsini yuxarıda adıçəkilən müqavilə üzrə ödənişlər üçün istifadə etməyi planlaşdırır. Tender AİB-in uyğun mənbə ölkələrindən olan iddiaçılar üçün açıqdır.
2. **"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (ADY)** ("Sifarişçi") uyğun iddiaçılardan "Biləcəri-Yalama dəmir yolu hissəsinin enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması işlərinin layihələndirilməsi, tikintisi və tamamlanması" üzrə qapalı zərfdə tender təklifləri qəbul edir.

Layihə, ADY-nin beynəlxalq yükdaşımalarına xidmət göstərən Azərbaycanın şimal - cənub və şərq - qərb dəmir yolu dəhlizlərinin əsas komponentləri olan Biləcəri - Yalama və Bakı - Böyük Kəsik dəmir yolu hssələri boyunca 25 kV-luq dəyişən cərəyanlı enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin modernləşdirilməsini nəzərdə tutan daha geniş proqramın tərkib hissəsidir.

Proqram çərçivəsində həyata keçirilən ilk layihə, regional yükdaşımalarını dəstəkləyən "Şimal - Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi daxilində əsas bağlantı olan Biləcəri - Yalama dəmir yolu hissəsini əhatə edir. Bu hissə təxminən 192 km uzunluğunda ikixətli dəmir yolu xəttindən və 15 stansiyadan ibarətdir. Layihələndirmə mərhələsi də daxil olmaqla, layihələndirmə və tikinti işlərinin təxmini müddəti 42 aydır.

Biləcəri (Biləcəri stansiyası istisna olmaqla) - Yalama dəmir yolu hissəsi sərnişin və yükdaşımalarını həyata keçirən, 1520 mm rels izinə malik ikixətli ənənəvi dəmir yolu xəttidir. Dəmir yolu xətti və əlaqədar işlərin bərpası yaxın vaxtlarda başa çatdırılmışdır. Dəhliz hazırda enerji təchizatı, işarəvermə və rabitə sistemləri ilə təchiz olunmuşdur, lakin bu sistemlər köhnəlmişdir və beynəlxalq standartlara cavab verən müasir sistemlərlə əvəz olunmasını tələb edir. Layihənin məqsədi bu marşrut üzrə təhlükəsizliyi gücləndirmək, istismar sürətini və səmərəliliyi artırmaq, həmçinin dəmir yolu xidmətlərinin etibarlılığını və əlçatanlığını yüksəltməkdir.

3. **Açıq rəqabətli tender - Beynəlxalq elan** AİB-in "Bir mərhələ:İki zərf" proseduruna əsasən keçiriləcək və tender sənədlərində qeyd olunan uyğun ölkələrdən olan bütün iddiaçılar üçün açıqdır.
4. Tenderdə yalnız tender sənədlərində qeyd olunan aşağıdakı əsas tələblərə cavab verən iddiaçılar iştirak edə bilərlər:

**a) Maliyyə vəziyyəti:**

Tenderdə iştirak edən şirkətin və ya birgə müəssisənin xalis dəyəri və maliyyə resursları aşağıdakı meyarlara cavab verməlidir:

- İddiaçı son 5 (beş) il üzrə audit olunmuş maliyyə hesabatlarını, yaxud İddiaçının ölkəsinin qanunvericiliyi auditi tələb etmədiyi halda, Sifarişçi tərəfindən məqbul sayılan digər maliyyə hesabatlarını təqdim etməklə cari maliyyə vəziyyətinin sabitliyini nümayiş etdirməlidir. Minimum tələb olaraq, İddiaçının son hesabat ili üçün ümumi aktivləri ilə ümumi öhdəlikləri arasındakı fərq kimi hesablanan xalis dəyəri müsbət göstəriciyə malik olmalıdır.
- Tək müəssisələr üçün: İddiaçı nümayiş etdirməlidir ki, onun maliyyə resursları, əsas müqavilə öhdəlikləri üzrə maliyyə öhdəlikləri çıxılmaqla, sözügedən Müqavilə üzrə müəyyən edilmiş ümumi tələbə – **25 milyon ABŞ dolları** məbləğinə bərabərdir və ya ondan artıqdır.
- Birgə Müəssisələr üçün – (1) Tərəfdaşlardan biri nümayiş etdirməlidir ki, onun maliyyə resursları özünün əsas müqavilə öhdəlikləri üzrə maliyyə öhdəlikləri çıxılmaqla, sözügedən Müqavilə üzrə ümumi tələbdən ona düşən **10 milyon ABŞ dolları** məbləğində paya bərabərdir və ya ondan artıqdır; (2) Hər bir tərəfdaş nümayiş etdirməlidir ki, onun maliyyə resursları, özünün cari müqavilə öhdəlikləri üzrə maliyyə öhdəlikləri çıxılmaqla, sözügedən Müqavilə üzrə ümumi tələbdən ona düşən **6 milyon ABŞ dolları** məbləğində paya bərabərdir və ya ondan artıqdır; (3) Birgə Müəssisə nümayiş etdirməlidir ki, bütün tərəfdaşların məcmu maliyyə resursları, tərəfdaşların əsas müqavilə öhdəlikləri üzrə bütün maliyyə öhdəlikləri çıxılmaqla, sözügedən Müqavilə üzrə müəyyən edilmiş **25 milyon ABŞ dolları** məbləğində ümumi tələbə bərabərdir və ya ondan artıqdır.

b) **İlik orta tikinti dövriyyəsi:** Son beş il ərzində icrası davam edən və ya tamamlanmış müqavilələr üzrə alınmış cəmi təsdiqlənmiş ödənişlər əsasında hesablanan minimum orta illik tikinti dövriyyəsi **130 milyon ABŞ dolları** təşkil etməlidir. Birgə Müəssisə halında, aparıcı üzv tələbin ən azı 40 faizini, hər bir tərəfdaş isə ən azı 25 faizini qarşılamalıdır.

c) **Oxşar həcmli müqavilə təcrübəsi:** 1 yanvar 2021-ci il və təkliflərin təqdim olunması üçün son tarix aralığında uğurla tamamlanmış, dəyəri 150 milyon ABŞ dolları olan bir müqavilədə podratçı, Birgə Müəssisə tərəfdaşı və ya subpodratçı kimi iştirak.

d) **Oxşar xarakterli müqavilə təcrübəsi: Son 5 il** ərzində aşağıdakı texniki tələblər üzrə podratçı, Birgə Müəssisə tərəfdaşı və ya subpodratçı kimi iştirak:

- Əsas dəmir yolu xəttinin minimum 50 km-lik hissəsində kontakt şəbəkəsi sistemlərinin təchizatı və quraşdırılması.
- Əsas dəmir yolu xəttinin minimum 50 km-lik hissəsində işarəvermə sistemlərinin təchizatı və quraşdırılması.
- Əsas dəmir yolu xəttinin minimum 5 stansiyasında rabitə sistemlərinin təchizatı və quraşdırılması.

e) İxtisaslaşdırılmış əsas fəaliyyət sahələri üzrə tikinti təcrübəsi:1 yanvar 2021-ci il tarixdən təkliflərin təqdim olunması üçün son tarixə qədər tamamlanmış yuxarıda qeyd edilən və ya digər müqavilələr üzrə aşağıdakı əsas fəaliyyət sahələrində minimum tikinti təcrübəsi tələb olunur. Bu təcrübə ya iddiaçının özü, ya da onun təklif etdiyi ixtisaslaşmış subpodratçı(lar) tərəfindən təmin edilə bilər.

- Dəmir yolu enerji təchizatı sistemlərinin layihələndirilməsi.
- Dəmir yolu işarəvermə sistemlərinin layihələndirilməsi.
- Dəmir yolu rabitə sistemlərinin layihələndirilməsi.

f) Tam qiymətləndirmə və ixtisas tələbləri üçün iddiaçılar tender sənədlərindəki tələblərə istinad etməlidirlər. Bu Tenderə Dəvət ilə Tender Sənədləri arasında hər hansı uyğunsuzluq yaranarsa, Tender Sənədləri üstünlük təşkil edəcəkdir.

g) Yerli iddiaçılara üstünlük tətbiq edilməyəcək.

5. Tender təkliflərinin qiymətləndirilməsi maliyyə və texniki meyarların çəki əmsalları (Merit Point) tətbiq edilməklə həyata keçiriləcəkdir. Texniki və maliyyə göstəriciləri üçün müvafiq olaraq 30:70 nisbətində çəki əmsalından istifadə edilməklə ümumi bal hesablanacaqdır.

6. Tenderqabağı görüşün keçirilməsi nəzərdə tutulmuşdur.

Tarix: 08 may 2026
Vaxt: Bakı vaxtı ilə saat 15:00
Yer: Distant *(Görüşün MS Teams keçid linki görüşdən iki gün öncə tender sənədlərini alan iddiaçılara göndəriləcəkdir)*

7. Tender sənədlərini əldə etmək və əlavə məlumat almaq üçün iddiaçılar saat 10:00-dan 17:00-dək (Bakı vaxtı ilə) aşağıdakı ünvana müraciət edə bilərlər.

LIQ-in Satınalma Komandası
Ünvan: Dilarə Əliyeva küçəsi, 230
Mərtəbə/Otaq: 1-ci mərtəbə, otaq 163
Şəhər: Bakı
Poçt indeksi: AZ1010
Ölkə: Azərbaycan
Telefon: +994 12 499 44 95; +994 12 499 43 56
E-poçt: estp.piu@ady.az

8. Tender sənədlərini (ingilis dilində) almaq üçün maraqlı olan uyğun iddiaçılar:

- yuxarıdakı ünvana yazılı müraciət etməklə (şirkətin rəsmi blankında və səlahiyyətli şəxs tərəfindən imzalanmış) **"ARESTP-BY-CW-01 – Biləcəri-Yalama dəmir yolu hissəsinin enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması üçün layihələndirmə və tikinti-quraşdıma işləri"** üzrə tender sənədlərini istəməlidir.
- Bank köçürməsi vasitəsilə aşağıdakı bank rekvizitləri üzrə **200 ABŞ dolları** və ya **340.00 AZN** məbləğində geri qaytarılmayan ödəniş edilməlidir:

***ABŞ dolları hesab məlumatları:***

| | |
|---|---|
| *Müştərinin adı* | *AZƏRBAYCAN DƏMİR YOLLARI QSC* |
| *Müştərinin hesab nömrəsi* | *38150018409345061205* |
| *Müştərinin IBAN-ı* | *AZ47IBAZ38150018409345061205* |
| *Müştəri VÖEN-i* | *9900007721* |
| *Müştəri nömrəsi* | *9345061* |
| *Bank adı* | *ABB, NƏRİMANOV FİLİALI* |
| *Bankın VÖEN-i* | *9900001881* |
| *Bankın SWIFT kodu* | *IBAZAZ2X* |

***Xarici köçürmələr üçün müxbir banklar:***

| | |
|---|---|
| *Müxbir hesab* | *04-164-504* |
| *Müxbir bank* | *DeutscheBank Trust Company Americas NY* |
| *SWIFT kod* | *BKTRUS33* |
| *Müxbir hesab* | *001-1-230521* |
| *Müxbir bank* | *JP Morgan Chase Bank, New York* |
| *SWIFT kod* | *CHASUS33* |
| *Müxbir hesab* | *36083186* |
| *Müxbir bank* | *Citibank NA, New York* |
| *SWIFT kod* | *CITIUS33* |

***AZN hesab məlumatları:***

| | |
|---|---|
| *Müştərinin adı* | *AZƏRBAYCAN DƏMİR YOLLARI QSC* |
| *Müştərinin hesab nömrəsi* | *38050019449345061205* |
| *Müştərinin IBAN-ı* | *AZ57IBAZ38050019449345061205* |
| *Müştəri VÖEN-i* | *9900007721* |
| *Müştəri nömrəsi* | *9345061* |
| *Bank adı* | *ABB, NƏRİMANOV FİLİALI* |
| *Bankın kodu* | *805711* |
| *Bankın müxbir hesabı* | *AZ03NABZ01350100000000002944* |
| *Bankın VÖEN-i* | *9900001881* |
| *Bankın SWIFT kodu* | *IBAZAZ2X* |

- Geri qaytarılmayan ödəniş edildikdən sonra, Sifarişçi tender sənədlərinin elektron variantını redaktə olunmayan fayl formatında (PDF) iddiaçıya göndərəcəkdir. Tender sənədlərinin çap olunmuş nüsxəsi iddiaçının səlahiyyətli nümayəndəsi tərəfindən elanda göstərilən ünvandan götürülə bilər və ya iddiaçının müraciəti əsasında, iddiaçı tərəfindən təşkil edilən kuryer vasitəsilə göndərilə bilər. Sifarişçi tender sənədlərinin itməsi və ya zədələnməsinə görə heç bir məsuliyyət daşımır.

9. Tender təklifləri təqdim edilməlidir:

- Ünvan: **4-cü mərtəbə, otaq 458, Dilarə Əliyeva küç. 230, Bakı, AZ1010, Azərbaycan Dəmir Yolları QSC-nin Baş ofisi**
- Təqdimat üçün son tarix: **29 may 2026 (Bakı vaxtı ilə saat 15:00)**
- Təkliflə birlikdə tender sənədində göstərilən Tender təklifinin Təminatı da təqdim olunmalıdır.

10. Təkliflər müəyyən edilmiş tarix və vaxtdan dərhal sonra açılışda iştirak etməyi seçən iddiaçıların nümayəndələrinin iştirakı ilə açılacaqdır. Gecikmiş təkliflər qəbul edilməyəcək.

Azərbaycan Dəmir Yolları QSC

# Invitation for Bids

| | |
|---|---|
| **Date:** | 17 April 2026 |
| **Project No.** | 59329-001 |
| **Project Title:** | Azerbaijan Railways Electrification, Signaling and Telecommunication Project (Bilajari-Yalama) |
| **Contract No. and Title:** | ARESTP-BY-CW-01 – Design and Build of Electrification, Signaling and Telecommunication Works of Railway Section Bilajari-Yalama |
| **Deadline for Submission of Bids:** | 29 May 2026, 15:00 hours (Baku local time) |

1. The **Government of Azerbaijan** has applied for financing from the Asian Development Bank (ADB) toward the cost of **Azerbaijan Railways Electrification, Signaling and Telecommunication Project (Bilajari-Yalama).** Part of this financing will be used for payments under the Contract named above. Bidding is open to Bidders from eligible source countries of ADB.
2. The **Azerbaijan Railways Closed Joint Stock Company (ADY)** ("the Employer") invites sealed bids from eligible Bidders for the design, construction and completion of Electrification, Signaling and Telecommunication Works of Railway Section Bilajari-Yalama ("the Works").

The Project forms part of a wider programme to modernize 25 kV AC electrification and signaling and telecommunications systems along the railway sections Bilajari–Yalama and Baku–Boyuk Kesik, which are key elements of Azerbaijan's north–south and east–west rail corridors serving ADY's international freight operations.

This first project under the programme covers the Bilajari–Yalama section, a key link within the International North–South Transport Corridor (INSTC) supporting regional freight transit. The section comprises approximately 192 km of double track and 15 stations. The estimated period for the design and construction works is 42 months, inclusive of the design period.

The Bilajari (excluding Bilajari Station)–Yalama section is a double-track, 1,520 mm gauge conventional railway line carrying passenger and freight traffic. The track and associated civil works have recently been rehabilitated. The corridor is currently equipped with electrification, signaling, and telecommunications systems; however, these systems are obsolete and require replacement with modern systems meeting international standards. The project aims to enhance safety, increase operational speed and efficiency, and improve the reliability and availability of railway services along this route.

3. **Open competitive bidding – International Advertisement** will be conducted in accordance with ADB's Single Stage:Two Envelope procedure and is open to all Bidders from eligible countries as described in the Bidding Document.
4. Only eligible Bidders with the following key qualifications defined in the Bidding Document may participate in this bidding:

**a) Financial Situation:**

The net worth and financial resources for the Bidder's organization or Joint Venture shall meet the following criteria:

- Submission of audited nancial statements or, if not required by the law of the Bidder's country, other nancial statements acceptable to the Employer, for the last 5 years to demonstrate the current soundness of the Bidder's nancial position. As a minimum, Bidder's net worth for the last year, calculated as the difference between total assets and total liabilities, should be positive.
- For Single Entities - The Bidder must demonstrate that its nancial resources, less its nancial obligations for its major contract commitments, meet or exceed the total requirement for the Subject Contract of **US$ 25 million.**
- For Joint Ventures – (1) One partner must demonstrate that its nancial resources, less its nancial obligations for its own major contract commitments, meet or exceed its required share of **US$ 10 million** from the total requirement for the Subject Contract; (2) Each partner must demonstrate that its financial resources, less its financial obligations for its own current contract commitments, meet or exceed its required share of US$ 6 million from the total requirement for the Subject Contract; (3) The Joint Venture must demonstrate that the combined nancial resources of all partners, less all the partners' total nancial obligations for the major contract commitments, meet or exceed the total requirement for the Subject Contract of US $25 million.

b) **Average annual construction turnover:** Minimum average annual construction turnover of **US$ 130 million** calculated as total certi ed payments received for contracts in progress or completed within the last five years. In case of Joint Venture, the lead member must meet at least 40% of the requirement, while each partner must meet at least 25% of the requirement.

c) **Similar Size Contract Experience:** Participation as a contractor, Joint Venture partner, or Subcontractor, in one contract of US$ 150 million that has been satisfactorily completed between 1st January 2021 and bid submission deadline.

d) **Similar Nature Contract Experience:** Participation as a contractor, Joint Venture partner, or Subcontractor, in the following technical requirements, within the last 5 years:

- Supply and installation of overhead catenary systems on a minimum of 50 route-km of main line railway.
- Supply and installation of signaling systems on a minimum of 50 route-km of main line railway.
- Supply and installation of telecommunication systems at a minimum of 5 main line railway stations.

e) **Construction Experience in Specialized Key Activities:** For the above or other contracts completed between 1st January 2021 and bid submission deadline a minimum construction experience is required in the following key activities, which may be compiled with by the Bidder itself or by its proposed Specialist Subcontractor(s).

- The design of railway electrification systems.
- The design of railway signaling systems.
- The design of railway telecommunication systems.

f) For the complete evaluation and qualification requirements, Bidders shall refer to the Bidding Document. If there are any discrepancies between this Invitation for Bid and the Bidding Document, the Bidding Document shall prevail.

g) Domestic Preference will not be applied.

5. The bids will be evaluated following the Merit Point Criteria. A combined score will be calculated using a 30:70 technical and financial weighting.
6. A Pre-Bid meeting shall take place.

Date: 08 May 2026
Time: 15:00 hours Baku local time
Place: Remote *(MS Teams meeting link will be provided two days before the meeting to the bidders who purchased the Bidding Documents)*

7. To obtain further information and inspect the Bidding Documents, Bidders should contact the following address between 10:00 – 17:00 (Baku local time).

PIU Procurement Team
Street address: 230 Dilara Aliyeva str.
Floor/Room number: Floor 1, room 163
City: Baku
ZIP code: AZ1010
Country: Azerbaijan
Telephone: +994 12 499 44 95; +994 12 499 43 56
E-mail: **estp.piu@ady.az**

8. To purchase the Bidding Documents in English, interested eligible Bidders should:

- submit written application (on the official letterhead of the company and signed by the authorized person) to the address above requesting the Bidding Documents for **"ARESTP-BY-CW-01, Design and Build of Electrification, Signaling and Telecommunication Works of Railway Section Bilajari-Yalama".**
- pay a non-refundable fee of **US $ 200 or AZN 340.00** by bank transfer. The Bank details are following:

***USD Account details:***

| | |
|---|---|
| *Customer name* | *AZARBAYCAN DAMIR YOLLARI QSC* |
| *Customer account number* | *38150018409345061205* |
| *Customer IBAN* | *AZ47IBAZ38150018409345061205* |
| *Customer TIN* | *9900007721* |
| *Customer number* | *9345061* |
| *Bank name* | *ABB, NARIMANOV FILIALI* |
| *Bank TIN* | *9900001881* |
| *Bank BIC* | *IBAZAZ2X* |

***Correspondent Banks for foreign transfers:***

| | |
|---|---|
| *Correspondent account* | *04-164-504* |
| *Correspondent bank* | *Deutsche Bank Trust Company Americas NY* |
| *BIC code* | *BKTRUS33* |
| *Correspondent account* | *001-1-230521* |
| *Correspondent bank* | *JP Morgan Chase Bank, New York* |
| *BIC code* | *CHASUS33* |
| *Correspondent account* | *36083186* |
| *Correspondent bank* | *Citibank NA, New York* |
| *BIC code* | *CITIUS33* |

***AZN Account details:***

| | |
|---|---|
| *Customer name* | *AZARBAYCAN DAMIR YOLLARI QSC* |
| *Customer account number* | *38050019449345061205* |
| *Customer IBAN* | *AZ57IBAZ38050019449345061205* |
| *Customer TIN* | *9900007721* |
| *Customer number* | *9345061* |
| *Bank name* | *ABB, NARIMANOV FILIALI* |
| *Bank code* | *805711* |
| *Bank correspondent account* | *AZ03NABZ01350100000000002944* |
| *Bank TIN* | *9900001881* |
| *Bank BIC* | *IBAZAZ2X* |

- Upon payment of the non-refundable fee, the Employer will send the soft version of the bidding document to the bidder in non-editable file format (PDF). A hard copy of the bidding document may be collected from the address stated in this notice by the bidder's authorized representative or, if requested, sent to the bidder by a courier organized by the bidder. The Employer will not be responsible for any loss or damage to the bidding document.

9. Deliver your bid:

- to the address: **Floor 4, room 458, 230 Dilara Aliyeva str., Baku, Azerbaijan, AZ1010, Azerbaijan Railways Headquarters**
- on or before the deadline: **29 May 2026, 15:00 hours (Baku local time)**
- together with a Bid Security as described in the Bidding Document

10. Bids will be opened promptly after the deadline for bid submission in the presence of Bidders' representatives who choose to attend. Late bids will be rejected.

# Qanvermə aksiyalarının davam etdirilməsi məqsədəuyğundur

**"Qanvermə aksiyasının təşkil edilməsində məqsəd xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək olmaq, onlara qayğı göstərməkdir".**

Bunu AZƏRTAC-a açıqlamasında Ümumdünya Hemofiliya Günü münasibətilə keçirilən "Ailəm könüllüləri" adlı qanvermə aksiyasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq məsələləri şöbəsinin müdiri Cəmilə Bağırova bildirib.




O, belə tədbirlərin davam etdirilməsinin məqsədəuyğun olduğunu deyib.

Qeyd edək ki, aprelin 17-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Ümumdünya Hemofiliya Günü münasibətilə "Ailəm könüllüləri" adlı qanvermə aksiyası keçirib.

Aksiya Səhiyyə Nazirliyi, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası, "Birlik" Xeyriyyə Təşkilatı, Azərbaycan Gənc Müəllimlər Assosiasiyası, Azərbaycan Uşaqlarının İnkişaf Platforması və Dövlət Komitəsinin birgə əməkdaşlığı ilə təşkil olunub.

# Xəzərin Qazaxıstan sahilində təxminən 100 ölü suiti tapılıb

**Qazaxıstanın Manqistau vilayətinin Tupkaraqan rayonunda - Xəzər dənizi sahilində doxsan yeddi suiti cəsədi tapılıb.**

AZƏRTAC Qazaxıstan mediasına istinadla xəbər verir ki, cəsədlər qərb küləyi ilə sahilə çıxarılıb.

Hidrobiologiya və Ekologiya İnstitutunun mütəxəssislərinin sözlərinə görə, suitilər bir aydan çox əvvəl ölüb, lakin yalnız fırtına külələri onları sahilə çıxarıb.



Nümunələr toplamaq və ölüm səbəbini müəyyən etmək üçün müvafiq qurumların nümayəndələrinin İşçi qrupu hadisə yerinə gəlib. Sahil monitorinqi davam edir.

2025-ci ildə Qazaxıstanın Xəzər dənizi sahilində 400-dən çox ölü suiti tapılıb.

**18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür**

# Milli kimliyimizi yaşadan irs

**Qədim sivilizasiyaların qovşağı olan Azərbaycan zəngin mədəni irsə malikdir. Paytaxt Bakı ilə yanaşı, respublikamızın müxtəlif bölgələrində xalqımızın tarixini, mədəniyyətini, ənənələrini, qədimliyini özündə əks etdirən tarixi abidələr bu günə qədər qorunub saxlanılır.**




Tarixi abidələr həm də mədəni turizmin inkişafı baxımından diqqət mərkəzindədir. Müxtəlif ölkələr, xüsusən turizm destinasiyalarında turistlərin üz tutduqları əsas yerlərdən biri tarixi-mədəni abidələrdir. Bir xalqın mədəniyyətini, tarixini, ənənələrini özündə yaşadan bu abidələr müxtəlif ölkələrdən gələn qonaqlara bir növ öz kimliyini təqdim edir. Bu baxımdan hər il aprelin 18-i Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi ilə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

Azərbaycan da mədəniyyətin inkişafına önəm verən ölkə olaraq bu günü qeyd edir. Ölkəmizdə tarixi abidələrin qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Dövlət tərəfindən tarix və mədəniyyət abidələrinin mühafizəsi, bərpası məqsədilə ardıcıl və sistemli tədbirlər görülür. Əsas məqsəd milli kimliyimizin əsası olan mədəni irsimizi yaşatmaq və bunu gələcək nəsillərə ötürməkdir.

Azərbaycan torpaqlarının işğalda olduğu dövrdə həmin ərazilərdə olan mədəniyyət abidələri ziyan görüb, onların böyük qismi məhv edilib. Belə ki, Birinci Qarabağ müharibəsindən əvvəl Azərbaycanın Qarabağ bölgəsində 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri mövcud olub.

Hesablamalara görə, işğal nəticəsində 500 tarixi-memarlıq abidəsi, 100-dən çox arxeoloji abidə, minlərcə əsərin qorunduğu 22 muzey, 4 rəsm sərgisi, 4,6 milyon kitab və əlyazma saxlanan 927 kitabxana, 85 incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı düşmən tərəfindən dağıdılıb. Eyni zamanda ibadət yerləri olan məscidlərin də, demək olar ki, hamısı yerlə-yeksan edilib və ya ciddi ziyan görüb.

Bu faktlar bir daha göstərir ki, ermənilər Azərbaycana qarşı törətdiyi urbisid cinayətlərində terrorizm vasitəsilə Azərbaycan xalqının milli kimliyini, dərin köklərə bağlı mədəni irsini silmək istəyiblər. Amma onlar unudurdular ki, tarix silinmir, Azərbaycan öz köklərinə, milli-mənəvi dəyərlərinə bağlı dövlətdir və itirdiklərini geri alaraq öz mədəni irsinə yenidən qayıdacaq.

Torpaqlarını düşmən tapdağından azad edən qüdrətli Azərbaycan bu şəhər və kəndləri yenidən qurmaqla yanaşı, Qarabağ mədəniyyətini yenidən canlandırdı, mədəniyyət abidələrinə yeni həyat bəxş etdi. Bu baxımdan xüsusən son 6 ildə Qarabağ və Şərqi Zəngəzurda görülən işlər təqdirəlayiqdir. İşğaldan azad olunmuş ərazilərdə mədəniyyət sahəsində görülən bütün işlər - mədəniyyət festivalları, tədbirlər, abidələrin bərpası, məscidlərin tikilməsi bunun əyani sübutlarıdır.

Qarabağ və Şərqi Zəngəzurda erməni barbarları tərəfindən dağıdılan abidələr həmin gündən bərpa edilir, yenidən qurulur. Bu sahədə Heydər Əliyev Fondunun fəaliyyəti təqdirəlayiqdir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Vətən müharibəsindən sonra demişdi: "Əziz həmvətənlər, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir".

Heydər Əliyev Fondu tərəfindən bu günədək Qarabağda bir sıra məscidlər, abidələr bərpa edilib, bəzilərində isə restavrasiya işləri davam edir. Memar Kərbəlayi Səfixan Qarabağinin müəllifi olduğu Şuşada yerləşən Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa məscidləri, Çöl Qala və Saatlı, Ağdamdakı Cümə məscidləri fond tərəfindən bərpa olunub. Bundan başqa, şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məscidi də əvvəlki vəziyyətinə qaytarılıb.

Bərpa edilən mədəniyyət nümunələri arasında digər tarixi abidələr də yer alır. Məsələn, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin ev-muzeyi və heykəli, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi də ölkəmizdə tarixi abidələrə verilən dəyərin bariz nümunələridir.

İşğaldan azad olunmuş ərazilərdə bərpa edilən bütün abidələrdə Qarabağ memarlığının özünəməxsusluğu qorunub saxlanılıb. Bunu bərpa edilərək yenidən istifadəyə verilən "Yasəmən" hoteli, "Şirin su" hamamı, Mehmandarovların malikanə kompleksi, Mir Möhsün Nəvvabın və Xurşidbanu Natəvanın qəbirüstü abidələrinin timsalında da görə bilərik.

Qarabağ memarlığı Azərbaycan memarlığının xüsusi bir qolunu təşkil etməklə bir məktəb yaradıb. Bu gün də Qarabağ irsinin yaşadılması üçün bərpa işlərində əvvəlki ənənənin qorunub saxlanılmasına göstərilən xüsusi diqqət həm də bu abidələr vasitəsilə milli dəyərlərimizin gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Tarixi abidələr milli kimliyimizi yaşadan irsdir. Bu irs dövlətimiz tərəfindən layiqincə qorunur və gələcək nəsillərə ötürülür.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** ***qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Prezident İlham Əliyev Türkiyəyə işgüzar səfərə gedib
"Uşaqlara qarşı yönəlmiş bu qəddarlıq əməlini qətiyyətlə pisləyirik"
Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana
Azərbaycanın qlobal diplomatiyada çəkisi artır
Prezident İlham Əliyev müstəqil və çoxvektorlu xarici siyasət strategiyasını uğurla həyata keçirir
Azərbaycan Qoşulmama Hərəkatının institusional mərkəzinə çevrilir
Azərbaycanın Mərkəzi Asiya istiqamətində sülh və təhlükəsizlik modeli

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



# Bilmək istəyirəm

**- Qonşu mənzildə baş vermiş qısaqapanma nəticəsində yaranan yanğın bacımın yaşadığı evə də keçmiş, ev əşyaları ilə birlikdə tamamilə yanaraq yararsız hala düşmüşdür. Daha sonra ailə müvəqqəti olaraq kirayə mənzilə köçmüş, lakin intensiv yağıntılar nəticəsində həmin ev də su altında qalmışdır. Hazırda ailə olduqca çətin və çıxılmaz vəziyyətlə üz-üzədir. Belə hallarda dövlət tərəfindən hansı növ maddi və sosial dəstək tədbirləri nəzərdə tutulur?**

***Z.FƏRƏCOVA,***
***Bakı şəhəri, Sabunçu rayonu***

- Sualınıza cavab olaraq bildiririk ki, baş vermiş hadisələr həqiqətən çox ağırdır və ailənin ard-arda belə sınaqlarla üzləşməsi böyük çətinlik yaradır. Bu vəziyyətdə hüquqi müstəvidə atılmalı olan addımlar və nəzərdə tutulan dəstək mexanizmləri barədə ətraflı məlumatı diqqətinizə təqdim edirik.

*Birincisi,* birdəfəlik maddi yardımdır. Bununla bağlı fövqəladə hallar və ya bədbəxt hadisələr nəticəsində əmlakına ziyan dəymiş, yaşayış sahəsini itirmiş şəxslər ilk növbədə rayon (şəhər) icra hakimiyyətinə müraciət edə bilərlər. Müraciətə hadisə və vəziyyətlə bağlı müvafiq sübutların (sənədlərin) əlavə olunması zəruridir. Nəzərə alınmalıdır ki, rayon (şəhər) icra hakimiyyətinin daxili ehtiyat fondlarından çətin vəziyyətə düşmüş ailələrə birdəfəlik maddi yardımın ayrılması mümkündür.

Həmçinin, birdəfəlik maddi yardımla bağlı ərazi üzrə müvafiq bələdiyyəyə də müraciət oluna bilər.

*İkincisi,* sosial müdafiə tədbiri kimi sosial yardımdır. Belə ki, "Ünvanlı dövlət sosial yardımı haqqında" qanunun 3-cü maddəsinə görə, sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə, əlilliyi olan uşağa və ya 8 yaşına çatmamış uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması, müvafiq icra hakimiyyəti orqanında dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər.

Sosial yardım aztəminatlı ailələrə müvafiq icra hakimiyyəti orqanı (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) tərəfindən təyin olunur. Sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi qaydaları "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və "Ünvanlı dövlət sosial yardımı haqqında" qanuna əsasən müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Bundan başqa, yaranmış vəziyyətlə bağlı sığorta faktı da yaddan çıxmamalıdır. Nəzərə almaq lazımdır ki, bu halda ziyan görmüş ev və ya mənzil icbari sığorta olunmalıdır.

İcbari sığorta növlərində əmlaka dəyən zərər həmin əmlakın zədələnməsi, məhv olması və ya hər hansı digər formada itkisi ilə bağlı onun əmlak mənafelərinə dəyən zərərlərdir. Zərər dəymiş əmlakın təmiri və ya bərpası texniki və digər səbəblərdən mümkün olmadıqda, yaxud səmərəsiz olduqda, o, məhv olmuş hesab edilir.

"İcbari sığortalar haqqında" qanunun 15.3-cü maddəsinə görə, əmlaka dəyən zərərin məbləği aşağıdakılardan ibarətdir:

1. Zərər dəymiş əmlakın təmiri və ya bərpası üçün birbaşa çəkilən xərclər, yaxud həmin əmlak məhv olmuş hesab edildikdə, onun sığorta hadisəsinin baş verməsindən bilavasitə əvvəlki dəyəri;
2. Zərəri azaltmaq məqsədi ilə binaların, qurğuların, avadanlığın sökülməsi və başqa yerə köçürülməsi ilə bağlı xərclər;
3. Zərər dəymiş əmlakın daşınması, habelə onun qalıqlarının yığılması və daşınması ilə bağlı xərclər;
4. Sığorta hadisəsi zamanı zərəri azaltmaq məqsədi ilə görülən tədbirlər nəticəsində əmələ gələn digər zərərlər.

Sığorta hadisəsi baş verdiyi təqdirdə sığorta şirkəti dəymiş ziyanı qiymətləndirməli və ödəniş etməlidir.

Bütün bunlarla yanaşı, ailənin yaşadığı ev tamamilə yararsız hala düşdüyü üçün ailə müvəqqəti yaşayış sahəsi ilə təmin olunma barədə ərazi üzrə icra hakimiyyətinə müraciət edə bilər.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# ABŞ-Vatikan qarşıdurması davam edir:

## Papa XIV Leo "dünyanı dağıdan tiranlar"ı qınayıb

### Donald TRAMP: "Mənə ABŞ Prezidentini tənqid edən bir Papa lazım deyil..."

**Afrika turnesi zamanı Kameruna səfər edən Roma Papası XIV Leo "istismar və müharibə yolu ilə dünyanı viran etmək üçün milyardlarla pul xərcləyən bir ovuc tiran"ı sərt şəkildə qınayıb.**



O, Bamendadakı Müqəddəs Yusif Katedralında çıxış edərkən bildirib: "Sülhməramlılar mübarəkdir, amma dini və Tanrının adını öz hərbi, iqtisadi və siyasi mənfəətləri üçün manipulyasiya edənlərin, müqəddəsliyi qaranlığa və iyrəncliyə qərq edənlərin vay halına. Bu, alt-üst olmuş bir dünyadır, Tanrının yaratdıqlarının istismarıdır və hər bir dürüst və vicdanlı insan bunu qınamalı və rədd etməlidir".

Bu günlər dünya sülhü üçün dua ayini zamanı Müqəddəs Taxt-taca sahib olan ilk amerikalı XIV Leo müharibə edən ölkələrin liderlərini yenidən silahlanmanın planlaşdırıldığı və ölümcül hərəkətlərin qərarlaşdırıldığı bir masa arxasında deyil, dayanıb danışıqlar masasına oturmağa çağırıb. "Kilsə həmişə sülhə çağıracaq, hətta müharibə məntiqindən imtina etmək anlaşılmazlığa və hörmətsizliyə səbəb ola bilsə belə, həmişə hər hansı bir insan hakimiyyətinə deyil, Allaha itaət etməyi aşılayacaq", - deyə Papa vurğulayıb.

Bu çağırışa cavab olaraq ABŞ Prezidenti Donald Tramp pontifiki xarici siyasətdə "dəhşətli" adlandırıb və Truth Social platformasında bəyan edib: "İranın nüvə silahına sahib olmasının normal olduğunu düşünən bir Papaya ehtiyacım yoxdur. Amerikanın ABŞ-yə külli miqdarda narkotik göndərən və daha da pisi, həbsxanalarından məhbusları, o cümlədən qatilləri, narkotik satıcılarını və cinayətkarları ölkəmizə göndərən bir ölkə olan Venesuelaya hücum etməsinin dəhşətli olduğunu düşünən bir Papaya ehtiyacım yoxdur. Mənə ABŞ Prezidentini tənqid edən bir Papa lazım deyil". Tramp hesab edir ki, Papa XIV Leo ona minnətdar olmalıdır, çünki yalnız amerikalı olduğuna görə o, pontifik seçilib. Roma Katolik Kilsəsinin rəhbəri isə öz növbəsində Vatikanın sülh və barışıq çağırışlarının İncilə əsaslandığını və hazırkı ABŞ Administrasiyasından qorxmadığını belə izah edib: "Mənim sülhə ümumi çağırışım və "hər şeyə qadirlik illüziyası"nı tənqid etməyim Trampa və ya başqasına birbaşa hücum deyil".

Bu arada ABŞ-nin vitse-prezidenti Cey Di Vens Fox News-a verdiyi müsahibədə Prezident Donald Tramp və Papa XIV Leo arasında virtual debat barədə şərh verib: "Əlbəttə, düşünürəm ki, bəzi hallarda Vatikanın mənəvi məsələlərə toxunması daha yaxşıdır. Katolik kilsəsində baş verənləri müzakirə etsələr daha yaxşı olar. Həm də Amerika Birləşmiş Ştatları Prezidentinin Amerika siyasətini müəyyən etməsinə imkan versinlər". ABŞ vitse-prezidenti əlavə edib ki, Vaşinqton və Müqəddəs Taxt-tac arasındakı münaqişədən çox da narahat deyil.

Xatırladaq ki, Vens 2019-cu ildə katolikliyi qəbul edərək, katolik inancının həqiqətinə əmin olduğunu bildirib. Papa XIV Leo (əsl adı Robert Frensis Prevost) Vatikanda Müqəddəs Taxt-taca seçilən ilk amerikalıdır.

Bu arada İtaliyanın Baş naziri Corca Meloni XIV Leonu dəstəkləyərək deyib: "Düzünü desəm, dini liderlərin siyasi liderlərin dediklərini etdiyi bir cəmiyyətdə özümü çox rahat hiss etməzdim". Daha sonra Tramp Melonini sərt şəkildə tənqid edib, halbuki əvvəllər dəfələrlə İtaliya Baş naziri haqqında təriflər səsləndirmişdir.

İran parlamentinin sədri Məhəmməd Bağır Qalibaf isə Papanın "qorxmaz mövqe"yini tərifləyib və XIV Leonun liderliyinin "milyonlarla insana ilham verdiyini" bildirib. "Bu işıq üçün təşəkkür edirəm!" - Qalibaf "X" sosial səhifəsində yazıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava proqnozu açıqlanıb



**Azərbaycanda aprelin 18-nə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 10-13, gündüz 16-21 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi qərb rayonlarında qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi bəzi şərq rayonlarında arabir güclənəcək.

Havanın temperaturu gecə 8-11, gündüz 18-23, dağlarda gecə 0-5, gündüz 10-15, bəzi yerlərdə 18 dərəcə isti olacaq.

# Küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıq edilib

**Milli Hidrometeorologiya Xidməti aprelin 18-də Bakıda və Abşeron yarımadasında, aprelin 18-20-də isə bəzi bölgələrdə gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıq verib.**

Xidmətdən AZƏRTAC-a bildirilib ki, Bakıda və Abşeron yarımadasında sarı xəbərdarlığa uyğun olaraq cənub-qərb küləyi, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Gəncə, Göygöl, Samux, Ağdam, Yevlax, Tərtər, Bərdə, Göyçay, Neftçala, Salyan, Quba, Şabran, Siyəzən, Qobustan, Şəki, Qəbələ, Oğuz, Kəlbəcər, Cəbrayıl, Füzuli, Laçın, Zəngilanda isə sarı xəbərdarlığa uyğun olaraq qərb küləyi əsəcək, küləyin sürəti saniyədə 13.9-20.7 metr təşkil edəcək.

Daşkəsən, Goranboy, Naftalan, Mingəçevir, Qusar, Xaçmaz, Xızı, Lerik, Yardımlıda narıncı xəbərdarlığa uyğun olaraq qərb küləyi əsəcək, küləyin sürəti saniyədə 20.8-28.4 metrədək güclənəcək.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3706
Sifariş 485

Qiyməti 60 qəpik